AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

İsmayıl bəy Nakam

# Fərhad və Şirin

Bakı – Nurlan – 2008

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İSMAYIL BƏY NAKAM

# FƏRHAD VƏ ŞİRİN

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 14 fevral 2007-ci il tarixli 2 №-li iclasının qərarı ilə nəşr edilir.

Nəşrə hazırlayan və ön sözün müəllifi:

Yolçu PİRİYEV,
filologiya elmləri namizədi

Redaktoru:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İsmayıl İSMAYILOV,
filologiya elmləri namizədi

Kompüter icraçısı:

Samir VƏZİROV

Korrektoru:

Suad ƏHMƏDOV

**İsmayıl bəy Nakam. Fərhad və Şirin. Bakı: Nurlan, 2008, 68 s.**

## NAKAMIN «FƏRHAD VƏ ŞİRİN» POEMASI HAQQINDA

XIX əsrin tanınmış Azərbaycan şairi İsmayıl bəy Nakam (1839-1906) bütün ədəbi irsini klassik üslubda–qəzəl, qəsidə, qitə, poema, mənzum hekayə və başqa şeir janrlarında yazıb-yaratmışdır. Sağlığında şairin əsərləri çap edilməmiş, ancaq əlyazma şəklində köçürülərək yayılmışdır. Hazırda Nakam irsinin böyük bir hissəsi Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və bəzi xarici ölkələrin kitabxanalarında, eləcədə də şəxsi əllərdə saxlanılır.

İsmayıl bəy Nakam dahi şairimiz Nizaminin «Xəmsə»sinə nəzirə yazmaq fikrində olmuş, lakin şairin cəmi üç poemasına cavab yaza bilmişdir. Belə ki,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

«Sirlər xəzinəsi»nə cavab olaraq «Gəncineyi-ədəb» / «Mərifət xəzinəsi», «Xösrov və Şirin»ə nəzirə kimi «Fərhad və Şirin» və «Leyli və Məcnun» poemasına cavab olaraq «Məcnun və Leyli» əsərlərini yazmışdır.

Göstərdiyimiz kimi, Nakam Nizaminin "Xosrov və Şirin" əsərinə də nəzirə yazmış, "Fərhad və Şirin" poemasını Nizami motivləri əsasında işləmişdir. Bəzi tədqiqatçıların iddia etdikləri kimi, bu, sadəcə "Xosrov və Şirin"in tərcüməsi deyil, ona istinadən yazılmış orijinal bir poemadır. Məlumdur ki, "Xosrov və Şirin" süjeti dahi Firdovsinin "Şahnamə" epopeyasından götürülmüşdür. Nizami bu mövzunu Firdovsidən sonra, əlbəttə, yeni bir istiqamətdə işləmiş, eşq-məhəbbət dastanı yaratmış, həm də burada öz ictimai fikirlərini canlandırmışdır. İ.Nakam isə bu cahanşümul eşq dastanının bir süjetini-Fərhadla Şirin arasında gedən hadisələri qələmə almış; öz dövrü və şəxsi həyatı ilə əlaqəli bir tərzdə, öz zövqünə və istedadına müvafiq bir dastan yazmışdır.

Akademik Həmid Araslı Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından danışarkən yazır: "...XIX əsr şairlərindən İsmayılbəy Nakam (1836-1906) "Xosrov və Şirin"in Fərhad ilə Şirin hissəsini tərcümə etmişdir.[1] Bizcə, professorun hökmü ilə razılaşmaq olmaz, çünki poemanın özü bunu inkar edir. Əvvələn, "Fərhad və Şirin poemasının mövzusu Nizamidən alınmış olsa da, Nakam tamamilə başqa yolla gedərək, yeni, orijinal bir əsər yazmışdır. Nizaminin surətlərindən Məhinbanu, Şirin, Fərhad və Xosrov burada da vardır. Lakin hadisələrin mərkəzində duran Fərhad və Şirin surətləridir. Məhinbanu əsərin başlanğıcında, birinci hekayədə iştirak edir. Xosrov da əsərdə çox səthi verilmişdir. Şapurun iştirakı ilə görülən işləri Nakam naməlum bir şəxsin və ya elçinin /peyk/ adı ilə vermişdir. Nakam yeri gəldikcə sərbəst hərəkət edərək, Nizamidə olmayan epizodlar vermiş, Fərhadı daha geniş planda işləmişdir. Şair əsərin əvvəlində, özü ilə dostları arasında gedən söhbətdə poemanı yazmasının əsas səbəbini çox aydın və geniş ifadə etmişdir. O, yazır:

Mənəm bir aşiqi-aşüftə əhval
Ki, bilməm necədir ruzü mahü sal.
Yanıb peyvəstə canım nari-eşqə,
Olub huşim fəda asari-eşqə.
Gəhi Fərhadvəş guhi-bəladə,
Həvəsim tişəsi səngi-cəfadə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xəraşi-Bisütuni-möhnət ilə,
Təraşi-səngi-kuhi-həsrət ilə...
Gəhi  Məcnun kimi səhrayi-qəmdə,
Dilim təşvişdə, canım ələmdə,
Gəzirdim subəsu, əfğan edirdim,
Nihani çeşmimi giryan edirdim.
... Bilib əhvalımı bir neçə həmdəm,
Dərunim sirrinə olmuşdu məhrəm.
...Dedilər mana, gey zarü balakeş,
Nədir bu dərdü bu suziş, bu atəş?
Nəçün bitabsən, bərgəştə əhval,
Nədir bu məstlik, bu qəm, bu isqal?
Nəçün gəh dəşti-möhnətdə pərişan
Olub giryan, edərsən ahü əfğan?
Əgər Fərhadsən kimdir o Şirin
Ki, etmişdir səni bu rütbə qəmgin?
Və gər Məcnunsən, kimdir o Leyla
Ki, etmişdir səni məftunü şeyda?
...Mələksə edəlim təsxirə guşiş,
Fələksə edəlim tədbirə guşiş...
Nəçün öz adını Nakam edibsən,
Olub bihuş, tərki-nam edibsən?
*1. N.Gəncəvi. "Xosrov və Şirin". Bakı, 1982. səh. 17.*

Göründüyü kimi, Nakam Leylini, Şirini və Əzranı öz gözəlliyi ilə kölgədə qoyan bir dilbərə aşiq olduğunu söyləyir. Həmin gözələ məhəbbətini ifadə etmək üçün şair "Əqanun kimi avazə gəlib, qədim eşq dastanını təzələyir".

Bəsani-ərğanun avazə qıldım,
Kuhən asari-eşqi tazə qıldım-deyir.

Şair bu qədim eşq dastanını təzələyərkən məhəbbətin hər şeyə qalib gələn gücünü, eşqin insana verdiyi zəngin mənəvi qüdrəti tərənnüm etmək istəmiş, "Məhəbbəti-cani-ərbabi-vəfa", "Kimya", "İksir" adlandırmış, insan qəlbini yaşadan, ruha güc verən, qara daşı qızıla çevirən, xarabalığı cənnət bağına döndərən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ecazkar bir qüvvəyə bənzətmişdir. Şair: “Dünya-aləm məhəbbətdən icad olmuş, İnsan məhəbbətlə vücudə gəlmişdir”-deyir.

Nakamın fikrincə, bəşər nəslini yaşadan məhəbbətdir. O, aşiqlərin yol yoldaşı, sirlərlə dolu həqiqət xəzinəsinin açarı, gizli incisidir:

Məhəbbət gövhəri-gənci-nihadır,
Məhəbbət pişvayi-aşiqandır.
Gəlid gənci-əsrari-həqiqət,
Məhəbbətdir, məhəbbətdir, məhəbbət! [2]

Poemada Nizaminin adı böyük hörmət və məhəbbətlə yad edilir. Nakam onu filosof, böyük söz ustadı kimi xatırlayır:

Şeyx Nizami ki, süxən sazdır,
Bülbüli-Qüds ilə həmavazdır...
...Nə xoş irad qılmış bu kəlami,
Əleyhü rəhmətü rəhman Nizami... [3]

Heç bir yerdə Nakam bu əsəri tərcümə etdiyini qeyd etmir, əksinə, ona yeni epizodlar əlavə edir, Nizamidə olmayan yeni surətlər yaradır. Nizaminin “Xosrov və Şirin” poemasında əvvəldən axıra qədər iştirak edən Şapur surətinin adını belə çəkmir. Fərhadı aldatmaq üçün Xosrovun göndərdiyi iftiraçı qocanı bizə “Xənnas” adı ilə təqdim edir:

Digərgun hal olub tədbir etdi,
Pozub əhdin, rəhi-təzvirə getdi.
Qılıb amadə bir namərd zati,
Əzazil surəti, Xənnas adi... [4]

Nizaminin əsərində bu idbar şəxsin xüsusiyyətləri, xarakteri söylənsə də, şair ona heç bir ad verməmişdir. Bundan əlavə, Nizami poemasının giriş hissəsi 96 beytdirsə, Nakamın poemasıda giriş 156 beytdir. Bir sıra epizodlar isə yenidir. Q.Beqdeli “Şərq ədəbiyyatında “Xosrov və Şirin” mövzusu” adlı əsərində Nakamın “Fərhad və Şirin” poemasından da danışır. O da Nakam əsərinin Nizamidən tərcümə etdiyini qeyd edir. Müəllifin fikrincə, Nakam yeri gəldikcə Vəhşi Bafqi əsərindən də istifadə etmişdir. Təəssüf ki, alim öz mülahizəsini sübut etmək üçün heç bir nümunə göstərmir. Beqdeli yazır: “... Nakam orijinalı eyni ilə verməklə bərabər, yeri gəldikcə əsərə yeni fikir və parçalar da artırmışdır.” [5]

“Fərhad və Şirin” poeması həcmcə kiçik, quruluşca sadədir. Poemada



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məhinbanu, Şirin, Fərhad və Xosrov surətləri iştirak edir ki, Məhinbanudan yalnız əsərin əvvəlində, Xosrovdan isə əsərin yarısından sonra söhbət açılır.

Poema Məhinbanunun ədalətli bir hökmdar olması, Ərmən, Muğan və Kuhistan torpaqlarında bolluq, firavanlıq yaratmasının tərifi ilə başlayır. Onun övladı olmadığından yeganə qardaşı qızı Şirini vəliəhd götürmüş, yanında saxlayıb tərbiyə vermişdir. Şirin gözəl, cazibədar, ağıllı bir qızdır. Şair onu oxucusuna belə təqdim edir:

1. Nakam. Divan. AMEA Əlyazmalar İnstitutu. M-40.
2. Nakam. Divan. AMEA Əlyazmalar İnstitutu. M-40.
3. Yenə orada
4. Yenə orada
5. Q.Beqdeli. Şərq ədəbiyyatında "Xosrov və Şirin" mövzusu. Elm Nəşriyyatı, Bakı, 1970. səh. 331

Ki, bir afətkər idi mahi-peykər,
Nə mah kim, mehri-xavərdən münəvvər.
...Huri mənzər, simənbər, sərvqamət,
Əyan idi qamətində qiyamət.
...Ləbi hər dəm ki, şəkkərriz olurdu,
Cahan şirinü şəkkərxiz olurdu.
...Sözü şirin idi, əndami şirin,
Sərasər şivəsi, həm nami Şirin.

Məhinbanunun ölümündən sonra Şirinin ölkəni idarə etməsi, ədalətli, mərhəmətli bir hökmdar kimi şöhrət və hörmət qazanması poemada geniş təsvir edilir. Burada da təsvir olunur ki, Şirin bütün nemətlərdən südü daha çox sevir. Süd uzaqdan gətirildiyi üçün Şirin bu intizara dözməyib otlaqdan qəsrə süd arxı çəkdirmək istəyir və bu zaman Fərhad yada düşür; onu tərifləyib haqqında:

Deyirlər, vardır bir mərdi-ustad,
Mühəndisdir, hünərvər, adı Fərhad...

Fərhad saraya dəvət olunur. Şirin ona öz yaxınlığında yer göstərir. İlk görüşdən Fərhad ona vurulur. Şirin onu yaxın bir dost kimi qarşılayır, süd arxı düzəltmək üçün sifariş verir. Aralarında köhnə dostlar kimi, çox səmimi söhbət gedir; Şirin ona suallar verir:

Nədir peşən, kim olmuş ustadın?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nədir adın, nə yerdir bumi-zadın
Ki, məqbulü ədib xoşliqasən
Ki, guya bir qədimi-aşinasən...

Fərhad hazırcavab bir gənc, mahir mühəndis olmaqla yanaşı, xoşsifət, qədd-qamətli bir igiddir. O, Şirinlə sərbəst söhbət edir:

Dedi Fərhad kim, bir namuradəm,
Adım Fərhaddır, Çini-nəjadəm...

Fərhad Şirini dinləsə də, onun tapşırığını, nə barədə danışmasını yadında saxlaya bilmir, huşunu itirir. Saray əyanlarından öyrənir ki, Şirinin arzusu qəsrə süd arxı çəkdirməkdir. Fərhad böyük həvəslə işə başlayır, tezliklə süd arxını, mərmər hovuzu düzəldir. Şirin onun işinə, sənətinə heyran qalır, yüksək qiymətləndirir:

Gəlib ol huriyi-gülzari-Rizvan,
Tamaşa qıldı hövzi, oldu heyran-
Ki, hövz şərbəti-şiri rəvandır,
Nə hövzə, hövzeyi-kövsər-nişandır.
Verib Fərhadə yer qürbində Şirin,
Edib Fərhadə min təkərrümi təhsin.
Qılıb Fərhadə hər dəm min sitayiş,
Edib izhar min üzri-nəvaziş...

Şirin özünün bütün qiymətli daş-qaşını minnətdarlıq əlaməti kimi Fərhada verir. Nizami poemasında olduğu kimi, burada da Fərhad hədiyyələri alır, göz yaşı ilə isladır. Şirinə afərin deyib ayaqlarına səpələyir; cəmiyyətdən uzaqlaşır, səhraların qoynunda həyat keçirir. Şair yazır:

Alıb gövhərləri Fərhadi-heyran,
Olub Şirinə hər dəm afərinxan.
Sirişki-didəsilə etdi rəngin,
Anı qıldı nisari-payi-Şirin...

Göründüyü kimi, Nakam poemasındakı bu epizod Nizami əsəri ilə çox yaxındır, sərbəst tərcümədir.

Divanəlik edən Fərhad gündüzləri səhrada, gecələri isə süd hovuzunun yanında keçirir, süd içib uzaqdan Şirinə tamaşa edir. Bu əhvalatı Xosrova xəbər verirlər. Fərhad kimi Xosrov da Şirinə dil verib, onu sevirdi. O, bir nəfər “pəhləvanı”



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

göndərib Fərhadı yanına çağırtdırır. Ona şirin dil töküb, Xosrovun yanına gətirir. Fərhad Xosrovun ənamlarına əhəmiyyət vermir, iki aşiqin münazirəsi başlanır. Deyişmədə Fərhad qalib çıxır. Xosrov Bisütun dağını yarmaq üçün Fərhadı dilə tutur və söz verir ki, əgər Bisütunu yararsa, qarşıya qoyduğu təklifi məmnuniyyətlə qəbul edərək onları qovuşduracaqdır:

Qəbul etdim,-dedi,-bu şərti səndən,
Zühur etməz bu şərtin nəqsi məndən.
Gedib ol Bisütunla həmtərazu,
Əyan qıl, göstər onda zuri-bazu-deyir.

Fərhad Bisütunu yararaq, zəmanədən və öz həyatından şikayət edir. Şirin qızlarla bir neçə dəfə dağçapanın tamaşasına gəlir, ona şərbət, süd və yemək gətirir. Hər tərəfdən Fərhadı görməyə gələnlər vardır. Bir dəfə Şirin ondan dağı nə üçün yarmasının səbəbini soruşur. Fərhad bildirir ki, onun eşqi ilə Bisütunu yarır. Əgər dağı yarıb, oradan "şəhrah açsa", Xosrov səndən əl çəkəcək. Şirin Fərhadın alnından öpür, ona dəyanətli olmağı tapşırır. Yola düşərkən atının ayağı ağrıyır. Fərhad Şirini atla birlikdə çiyninə alıb, saraya qədər gətirir və yenə Bisütuna qayıdır.

Şirinin Bisütuna getməsini və Fərhadla görüşməsini Xosrova danışırlar. Şaha bildirirlər ki, Şirinin görüşü Fərhada yeni qüvvət vermişdir. Şah, Xənnas adlı əzazil, ağzında "əfi ilan zəhəri gizlənən" bir nəfəri Bisütuna, Fərhadın yanına göndərir. Xənnas Fərhada "Şirinin ölüm xəbərini" yetirərək, onun həlak olmasına bais olur.

Şirin Fərhadın ölümündən xəbər tutanda fəryad qoparır, ağlayır. Bisütuna gəlir, onu qüsl və dəfn etdirir. Kədərli geri qayıdır.

Göründüyü kimi, poemada Nizaminin əsərinə çox yaxın olan məzmun və süjet ilə yanaşı, ondan fərqli yerlər, yeni epizod və hadisələr də yox deyildir. Bu heç də "Fərhad və Şirin"in Nizami poemasının tərcüməsi olduğunu söyləməyə əsas vermir.

Klassik ədəbiyyatımızda bu nadir hadisə deyildir, "Leyli və Məcnun", "Şeyx Sənan", "Yusif və Züleyxa" kimi əsərlərin müxtəlif müəlliflər tərəfindən yazıldığı məlumdur. "Xosrov və Şirin" mövzusu da belə geniş yayılmış mövzulardan biridir.

Firdovsi, Nizami, Arif Ərdəbili, Əlişir Nəvai, Mirzə Cəfər Şölə və b. müəlliflər bu mövzunu müxtəlif dövrlərdə qələmə almışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Göründüyü kimi, İsmayıl bəy Nakam XIX əsr Azərbaycan poeziyasında klassik ənənələri davam etdirməklə yanaşı, həm də öz dövrünün hadisələrinə münasibət bildirmiş, dil, üslub və sənətkarlıq baxımından maraqlı bir irs qoyub getmiş, beləliklə də öz əsrinin poeziyasının zənginləşməsinə öz töhfəsini vermişdir.

## FƏRHAD VƏ ŞİRİN

İlahi, babi-tovfiqin guşad et,
Bəni tövfiqin ilə bərmurad et!
Bana bir diql inayət qıl ki, hər an,
Olub nuri-hidayətlə firuzan.
Gəh anda eşqi-Şirin vüsalin,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəh anda Leyli–hübbi-cəmalin,
Qılıb cilvə dəmadəm beltəvali,
Bəni qılsın səvadən laübali
Məhəbbət, Bisütunda həmişə,
Edib yeksər həvasim tişəpişə.
Həma rəh eyləyib Məcnuni-şeyda,
Biyabani-təəşşüqdə, Xudaya!
Bəni Fərhadvəş gəh Kuhkən qıl,
Gəhi Məcnun kimi bixiştən qıl
Zəbanim eylə rahi-həqdə guya,
Kəlamım qıl pəsəndidə, Xudaya!

## TOVFİQİ–RƏBBİ-QƏDİR VƏ TƏMCİDİ–XALİQİ-BİNƏZİR

İlahi, xaliqi-rəhman sənsən.
Qədimü hadiyü mənnan sənsən
Olur əmrinlə hər mövcud peyda,
Bulur hökmünlə surət cümlə əşya!
Sənin cudunla cümlə kamrandır–
Ki, Vər mövcuddə cudun əyandır.
Degildir əvvəlindən kimsə agəh,
Ki, bu vadidə naməlumdur rəh.
Pədid arəndə sənsən Mehru Mahi,
Bilən ancaq səni sənsən kəmahi
Əzəlsən, fərdsən, sən ol xudəsən.
Ki, bimanəndsən, biintihasən.
Sənin adınladır gərdişdə əflak,
Sənin adınladır arayışı-xak.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sənin adın kilidi–bəstənqandır.
Sənin adın şəfayi-xəstə qandır.
Sən ol həqsən ki, səfin kainatı
Bu əcrami–kəbiri–mümkünatı
Qılıb küncidə əcsam-bəşərdə,
Müfəssəl eylədin bu müxvəsərdə.
Dər əsrari-mənayi qol əl ruh,
Olub sərrpəncə əmrinlə məftuh
Guşad oldu hicab iştibahi,
Göründü şahidi-məna kəmahi.
Ki, sənsən bəndeyi-ərvahi əyan.
Sana nə ibtida vardır, nə payan.
Verən rövnəq sərapa kainatə,
Sifati eyləyən dilbəstə zatə.
Təcəllayi-sifət kamilindir,
Təqazi-fiyuz şamilindir
Qılıb ayinə bir fövci cəmalə,
Sifati-zatın əks-əndaz oldu,
Beqədri-xiş hər kəs fərr buldu.
Olub gəh pərtovi-nurun numayan,
Ruxi-Şirindən qıldın dirəxşan.
Məhəbbət nəşəsin Fərhadə verdin,
Vücudin Bisütundə badə verdin.
Degildir eyləyən Fərhadı şeyda,
Ləbi- Şirin, rüxi-Şirin, əmma,
Rüxi-Şirində nurun buldu Fərhad,
Rüxi-Şirinə aşiq oldu Fərhad.
Sənin eşqin edib Fərhadı Mənkub,
Sənin eşqin anı qılmışdır məğlub.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bedanson Çöhreyi-Leylidə bir dəm,
Olub nurun furuqi cilvəgər həm.
Təəşşüq camını Məcnunə verdin,
Bəlayi-eşqi ol dilxunə verdin.
Qılıb Leyli əlindən camını nuş,
Olub mədhuş, edib qeyri fəramuş.
Dəxi fərq etmədi Leylini səndən,
Səni fərq etmədi ol gülbəndəndən.
Degil Məcnun edən Məcnunu Leyla,
Sən etmişsən oni məftunü şeyda.
Degil Məcnun dəxi Leylayə məftun,
Sənə məftun idi biçarə Məcnun.
Rüxi-Leyla idi bir mirati–sadə,
Səni seyr eylədi onda güşadə.
Şüuru huşdən biganə oldu,
Sana aşiq olub divanə oldu.

MÜNACAT

Rauf, mehriban sənsən, ilahi,
Əzizi, müstəan sənsən, ilahi!
İbadə verdigin əhkamü taət,
Bəratü feyzdar xətti-inayət.
Ki, taəti zəminü asimandan,
İbadət mülkündən, insü candan.
Qənidir bargahi-bizəvalın
Münəzzəhdir, münəzzəhdar cəlalın.
Əgər taət edərsə, Cümlə adəm,
Əgər asi olarsa yeksər aləm,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə taətdən bulur bir sud şanın,
Nə üsyani-cahandan var ziyanın
Bu əmrindən, bu taətindən cahanə,
Qərəzü qofrandır taət bəhanə.
Qulun naçar Nakamı, ilahi!
Zəlilü zar Nakamı ilahi!
Fəzayi-həşrdə naçar qılma,
Edib rüsvayi-aləm xar qılma,
Əmimi  fəzlin ilə kamran et,
Ənisü həmcəlisü vəsilan et.
Günahbəxşü xətapuşü kərimsən,
Əfvul zənəb rəhmanü rəhimsən.
Günahın əfv edib əxvani dinin,
Muradın ver cəmiən müslimin.
İlahi, qaziyül-əlhacat sənsən.
İlahi, samül-dəavat sənsən
Bəhəqqi–qürbəti–cari-Məhəmməd
Bəhəqqi–qəlbi–agahi-Məhəmməd.
Bəhəqqi–guşişi–Fərhadi–şeyda,
Bəhəqqi–suzişi–Məcnuni-rüsva,
Qəbul eylə niyazim kim, nəzarəm,
Sənin iltifatına ümidvarəm.
Bənəm Nakam, cürmüm yad olursa,
Günahım yekbəyek tedad olursa,
Qiyasi-həddindən gərçi birundur,
Vəli ümmidi-fövz andan fizundur.
Ki, ümidim, pənahim, dadxahın,
Şəfiim, dəstgirim, padşahım.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

O soltani–şəfaəti-ehtivadır.
Ki, bir adı cənabi-Mustafadır.
O sahibi-raiyətətə, ol tacidarə–
Səlat olsun, salam olsun həmara
Ki, odur məqsudi–əsli-afəriniş,
Çiraqi–dideyi–əshabi-biniş.
O, əmniyyət dehi-ruzi-cəzadır,
Kilidi-gənci-qufran xudadır.
Odur nəqdinəsi gənci-nihanın,
Odur gəncinəsi vəhyi-xudanın
Şəfin üzrxahi-cürmi-ümmət,
Şəfiqi-ümməti ku ta qiyamət.
Həbibi-nazəninki məhbub-mövla,
Şəbəfruzi şəbistanü o ədna
İmami-ənbiya şahi-dilagəh
Səriraráyi-təxti li məalləh
Süleyman bəndeyi-xamuşu anın,
Kəlimallahdır çavuşu anın.
Təbibi-barigahıdır Məsiha
Ki, bir dəmdə edər əmvatı əhya.
Ümuratında ərkani-müzəffər,
Əbubəkrü Omar Osmanü Heydər.
Məlayik ləşkəri nüsrət ləvasi
Sipəhsaları şiri-Murtuzasi.
Sərapa möcüzat idi vücudi,
Vücudilə xəcil qıldı ənudi.
Rəhi-vəsfində Zöhrə saz edib ud,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nəvapərdaz olur nətində Davud.
Ki, gərçi əqldir bir cövhəri-pak,
O, pak olsa, anınla pak olur xak.
Vəliykən əql pak olmaz müəbbəd,
Gər anda olmasa Hübbi-Məhəmməd.

## MERACİYEYİ–HƏZRƏTİ–SEYYİDİ-AİNAT, ƏLEYHƏ ƏKMƏLÜL-TƏHİYYAT

Əya, şahi-Rəsuli–sultani-kövneyi,
Şərəfbəxşi-səririü qabi-qovseyn.
Qubari-məqdəmindir kəhli-biniş
Səninlə buldu biniş afəriniş.
Tərazi-ərşi-əla nəqşi-namin,
O dəm kim, eylər oldun əzmi-merac,
Fələk nəleynin ilə oldu zitac
Əmin vəhy olub xidmətgüzarın,
Qılıb cövlan bir ac bərqvarın.
İrişdin bir məqamə ki, onda Cəbrail,
Qalıb heyrətdə, seyrin qıldı təkmil.
Rəfiqi-rəhnəvərdin oldu rəfrəf,
Hüzurindən mələklər keçdi səf-səf
Şitabi-rəfrəfindən buldu payan,
Qalıb tənha, olub tənha xuraman.
Bu noh əflakdən oldun forsran,
Cəhati-sitdədən keçdin bedansan.
Keçib ərşi güzər qıldın hicabi,
Hicabati keçib açdın niqabı.
Edib nabud cümlə hadisatı,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Vərayə tərk qıldın kainatı.
Səni qıldı əhatə nuri-mütləq,
İki çıxdı aradan, qaldı bir həq.
Hərimi-xassən oldu qürbi-mövla,
Səririn qabi-qövseyn o ədna.
Qılıb röyəti-cəlal zülcəlali,
Əyan gördün cəmali zövcəlali.
Şərabi-ittisalın nuş qıldın
Kəlami-bicəhatın guş qıldın.
Neçə məqsud qıldınsa ifadə,
Bulub məqsudani, yetdin muradə.
Hüzuri-həqdən dilşadü xəndan,
Rüxündə pərtövü vəslət nəmayan.
Əlində rəhmətü qofran bəratı,
Müqəyyəd anda mücrümlər nicatı.
Tənəzzül eylədin bu xakdanə,
Gətirdin müjdə, gəldin asiyanə.
Nə qəm eylər xatakar olduğundan,
Xətaya giriftar olduğundan.
Anın kim, sən kibi var mültəcası,
Sənin tək padişahi-zül ətası.

## İZHARİ–İŞTİYAQİ–DİDARİ–HƏZRƏTİ–RƏSALƏT-PƏNAH ƏLİHƏ ƏBRƏKƏ SƏLAVATULLAH

Əya, ey şahidi-xərgahi lövlak,
Sana məşğuf yeksər əhli-idrak.
Əgərçi padşahi-möhtəşəmsən,
Vəli dərvişdil, sahib kərəmsən,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Olursa ümmətindən bir siyəhkar,
Əzabi-nari-neyranə səzavar
Sənin lütfün ani azad eylər.
Behişti-həştdə dilşad eylər
Ki, bir adın şəfiyi-əlmüzbindir.
Sona kim dadirəslik pişədir bəs,
Şəfaət eyləmək əndişədir bəs.
Rəvamı atəşi-hicrində hər an
Qalım mən boylə suzanü pərişan?
Sana bir aşiqi dildadəyəm mən,
Bəlayi-eşqdən üftadəyəm mən.
Könüldə suzişi–dərdi-fəraqin,
Ciyərdə dərdi-suzi-iştiyaqin.
Yaxıb canım, alıb səbrü qərarım,
Əlimdən səlb edibdir ixtiyarım.
Mədəd qıl, eyləyib fəryadımı guş,
Dəruni-suzim et vəslinlə xamuş.
Qılıb aşüftədil Nakami–z ari,
Edibsən bərqərar ol dilfikari.
Kərəm qıl, ta əbəd Nakam qılma,
Anı hicrində biaram qılma.
Güşad et babi–minuyi-vüsalin,
Hicabi rəf qıl, göstər cəmalin.
Rahi-eşqində düşgün bir əliləm.
Əlim tut, ya nəbiyullah, zəliləm!
Məni qıl cərbəsayi–xaki-rövzə,
Olub qurban xaki-paki-rövzə!

## SƏBƏBİ–TÖLİFİ–KİTAB



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mənəm bir aşiqi-aşüftə əhval
Ki, bilməm neçəcir dövri-mahü sal.
Yanıb peyvəstə canım nari-eşqə,
Olub huşim fəda asari-eşqə.
Gəhi Fərhadvəş kuhi-bəladə,
Həvasim tişəsi səngi-cəfadə.
Xəraşi Bisütun möhnət ilə,
Təraşi–sangi-kuh həsrət ilə.
Şəkiba bulmayıb məşğul olurdum,
Səlahi əqldən məzul olurdum.
Gəhi Məcnun kimi səhrayi-qəmdə,
Dilim təşvişdə, canım aləmdə.
Bəbai səbri aramım dəridə,
Tənü huşum birəhnə, dil qəmidə.
Gəzirdim subasu, əfqan edirdim,
Nihani çeşmimi giryan edirdim.
Degildi həmnəfəs bir kəs bənimlə,
Degildi həmqəfəs bir kəs bənimlə.
Degildi sirrimə bir kəs məhrəm,
Bəni də zənn edib hər kəs bir adəm,
Qılıb peyda zəmanə bir bəhanə,
Olurdum mültəhəqq əhli-cəhanə,
Gəhi mərğub olub mətlub olurdum,
Gəhi məzurü namərğub olurdum.
Bu rəsm ilə dilimdə eşq hali,
Təəyyüş eyləyirdim laübali.
Bilib əhvalımı bir neçə həmdəm,
Dərunim sirrinə olmuşdu məhrəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şəbi dicurlərdən bir şəbi-tar
Ki, tar idi bəsani-türreyi-yar.
Dilimdə vəcdi–asari-məhəbbət,
Təzaid eyləyib bulmuşdu şiddət,
Olub piçidə atəşi-dilə mutək,
Edərdim cuş cuşidə səbu tək.
Qılıb icad şeri-aşiqanə,
Haman şer ilə eylərkən təranə,
O yaran kim, xəbərdar idi bəndən,
Dəmadəm çəkdiyim dərdü məhəndən.
Gəlib, bəzmim qılıb bir dəm şərəfnak,
Edib damani sirrim çaki-çalak,
Dedilər mana, key zarü bəlakeş,
Nədir bu dərdü bu suziş, bu atəş?
Nəçün bitabsən, bərgəştə əhval,
Nədir bu məstlik, bu qəm, bu əsqal?
Nəçün gəh kuhi-qəmdə dudi-ahin–
Açır bağrından əşki-didə oahin?
Nəçün gəh dəşti-məhnətdə pərişan
Olub giryan, edərsən ahu əfğan?
Əgər Fərhadsən, kimdir o Şirin–
Ki, qılmışdır səni bu rütbə qəmgin?
Və gər Məcnunsən, kimdir o Leyla
Kim, etmişdir səni məftuni şeyda?
Səni kim eyləyib eşqə giriftar,
Kim etmişdir səni boylə diləfkar?
Mələksə edəlim təsxirə guşiş,
Fələksə edəlim tədbirə guşiş.
Nəçün öz adını Nakam edibsən,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Olub bixiş tərki-nam edibsən?
Əgər təvizə varsa ehtiyacın,
Rəvan təviz ilə olsun əlacın.
Və gər məcunə mərbut isə dərdin,
Bulunsun çareyi–rüxsari-zərdin.
Giriftar olduğun bəsdir bu halə,
Yetər bu ahü bu əfqan, bu nalə.
Bu sevdadən keçib tərki-fağan et,
Dili-əhbabi bir dəm şadman et!
Qılıb izhari–mehri-müşfiqanə,
Bu gunə bəst verdilər bayanə.–
Vücudim cümlə guşu huş qıldım,
Bu pəndi-sudməkdi guş qıldım.
Olub aşüftəə düşdüm iztirabə,
Açıb ləb, ibtidar etdim cəvabə.
Ki, mən xamuş olub qıldım sizi guş,
Məni şimdi edin siz guş, xamuş.
Edib filcümlə kəşfi-razi-mübhəm,
Qılıb bir şəmmə halimdən bəyan həm,
Sizə Fərhad halın şərh edim mən,
Bu köhnə nəqşi tazə tərh edim mən.
Ki, anda mündəricdir həm bədonsan,
Mənim hali-nihanımda kəmakan.
Dəxi Məcnun sərgərdandan həm,
Hekayət eyləyim bir fəsl mübhəm
Ki, anda mündəricdir həm sərapa,
Mənim dərdi-dilim də çayi-bərca.
Olub dəmbəstə yaran eylədi guş,
Dərunimdə nihani-eşq oldu dərcuş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəsani-ərcanun avazə qıldım,
Kühən asari-eşqi tazə qıldım.
Ki, ey agahi–əsrari-nihanım!
Ənisim, qəmküsarım, mehribanım!
Görüb bu zəifi, bu dərdi tənimdə,
Bu zənciri-künuni gərdənimdə
Gəhi təvizü, gəh əfsuni birlə,
Gəhi timarü, gəh məcnun birlə,
Bu vadidə qılıb bica təkapu,
Əlaci-dərdimə olma dəvacü–
Ki, bən məsti–xərabi–cami-eşqəm,
Kəbabi – atəşi-alami-eşqəm.
Xərabi–sağəri–bəzmi-ələstəm,
Künun bir aşiqi-bixişü məstəm.
Həmara ruzü şəb məcnunmisali,
Cəhanda nikü bəddən laübali.
Ədim ol məskənəm kaşanə bərduş,
Mənə zəhr ilə birdir kaseyi-nuş.
Təəşşüqdən düzülmüş üstüxanım,
Sərapa eşqdir cismimdə canım...
Əsiri–həlqeyi–dami-bəlayəm,
Şikənci–zülfi-yarə mübtəlayəm.
Könüldür maili məhbub ancaq,
Mənə məhbubdur mətlub ancaq.
Necə məhbub kim, fərri-şükuhi,
Yaxıb nabud edər asari-kuhi.
Əgərçi dilruba məhbub çoxdur,
O məhbubun, vəli manəndi yoxdur.
O, bir məhbubdur bimislü yekta,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Anın xüddamidir Şirinü Leyla.
Nə bir Leyla, nə bir Şirin, nə Əzra,
Sərasər nazəninani–dil ara
Olub ayinədar ol bimisalə,
Həman məzhər düşüb əksi-cəmalə.
Bulubdur hər biri bir pərtov andan,
Olubdur nazəninyani-cəhandan.
Bu məhbubun künun hüsnü cəmali,
Şükuhü şövkəti, şəni-cəlali,
Ələlicmal kim, məlum olundu,
Gözəllik payəsi məfhum olundu,
Olur məhvəşlərin məftunu hər kəs,
O məhvəşi-hüsnünün miqdarıca bəs.
Məalın bildin isə bu bəyanın,
Baxıb gör fərqini Leylidən anın.
Anın dilbəstəsi rahət bulurmu?
Anın dildadəsi hüşyar olurmu?
Bu məhbub eşqin Məcnuniyəm mən,
Bu məhbub eşqin dilxuniyəm mən.
Vüsal ilə mana olmazsa çarə,
Olur məcruh könlüm parə-parə.
Olub firqətdə nalan gahi-bigah,
Dərunim suzinişindən eyləyib ah,
Qılıb təzkar sabiq dustani,
Vəsilə eyləyib bir dastani,
Gəhi Fərhaddən qılsam rəvayət,
Gəhi Məcnundən etsəm hekayət,
Həman qeyri deyil, hali-dilimdir,
Bəyani-arzuyi-müşkülümdür–



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ki, məst etmiş bizi bir badə, bir cam,
Mənim tək olmuş anlar daxi nakam
Yetər, Nakam, bu təmhid bəsdir,
Bəyan et mətləbi, təhdid bəsdir.
Səbah həşrədək balmaz nəhayət,
Bu mübhəm sirri eylərsəm hekayət–
Ki, bəhsi-eşqi-şərhi aşinayi,
Hədisi–şövqi–təfsiri-cüdayi,
Kəmalicə əgərçi cayi-bərcə
Deyildir qabili-təqrir, əmma.
Bu məcməl bir müfəssəl dastandır-
Ki, şərhi-dastan rastandır.
Əyandır bunda asari-məhəbbət,
Bəyandır bunda əsrari-məhəbbət.
Məhəbbət cani-ərbabi-vəfadır,
Məhəbbət bir müəssər kimyadır.
Ki, feyzi-eşqi–təsiri-məhəbbət,
Füsuni-eşqi-iksiri-məhəbbət.
Qılır zində dili, ruhə verir tab
Edir səngi-siyəhfami zərnab.
Güzər qılsa əgər buyi-məhəbbət,
Edər hər külxəni bir baği-cənnət.
Qılıb hər müşkülü asan məhəbbət,
Edir nikü bəli yeksan məhəbbət.
Məhəbbətdən olub icad aləm,
Məhəbbətdən vücudə gəldi Adəm.
Məhəbbət gövhəri–gənci-nihandır,
Məhəbbət pişvayi-aşiqandır.
Məhəbbətdir firuqi-atəşi Tur,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məhəbbətdir məali–sureyi-nur.
Kəlidi-gənci-əsrari-həqiqət,
Məhəbbətdir, məhəbbətdir, məhəbbət!
Məhəbbət dövri-Adəmdən ila əlan,
Edib növbətlə hər aşiqdə dövran,
Olub bir-bir müluki-eşq zahir,
Qılıb təslimi-can canana axir.
Məhəbbət növbəti Fərhadə gəldi,
Qəmindən Bisütun fəryadə gəldi!

## AĞAZİ–DASTANİ-FƏRHADİ MİSKİN
## VƏ VƏSFİ-CƏMAL DİLARAYİ-ŞİRİN

Süxənpərdazi–əxbari-məhəbbət,
Həmin tərz ilə qılmışdır rəvayət.
Ki, nəsli-şahlardan bir pərvəş,
Məhinbanu adı, ətvari dilkəş.
Cahanın olmuş idi padşahi,
Diyari-ərmən idi təxtgahi.
Təmam iqlim-Kuhistan sərapa.
Ana fərmanbər idi pirü borna.
Keçərdi hər nəfəsdə vəqti xürrəm,
Anın mülkündə naməvcud idi qəm.
Olub seyviyyəsi gülzari-Ərmən,
Edərdi seyr ani gülşənbəgülşən.
Qılırdı fəsli-gül məskən Muğani
Olurdu sünbülü gül ərmağani.
Cəfasından bu dəhri-bivəfanın,
Rəgi-nəslindən o sahibi-səfanın,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Deyildi sayəəfkən bir mədədrəs,
Bəradərzadəsindən qeyri bir kəs.
Ki, bir afətgər idi mahpeykər,
Nə mah kim, Mehrü Xavərdən münəvvər.
Dəhanində dəmi-İsa nəhani,
Vəli mövhümi idi sirri-dəhani.
Pərimənzər, siminbər, sərvqamət,
Əyan idi qiyamində qiyamət.
İki ləli-əqiq abdadə,
İki zülfü kəməndi tabdadə.
Bəsani-tari muy idi miyani,
Ləbiydi eyni–abi-zindigani.
Gədəngi qəmzə, əbrusi kəmansaz,
Kəmandari nigah rastəndaz.
Ləbi hər dəm ki, şəkkərriz olurdu,
Cəhan şirinü şəkkərxiz olurdu.
Yüzündə türrəsi olduqda əfşan,
Ki, edirdi rövnəqi-ənbərfiruşan.
Müsəlsəli-keysuvani çinü dərçin.
Həvasi eyləyərdi Çini mişkin.
İki mehrabi–əbruyi-siyahi
Güruhi-nazəninan qibləgahi.
Açıb ləb hər zaman qılsaydı əlhan,
Verərdi guş edən əlhaninə can.
Sözü şirin idi, əndami şirin,
Sərapa şivəsi, həm nami Şirin
Bu şirincilvə, bu arayişi-məhd,
Məhinbanuya olmuşdu vəliəhd.
Olarsa yar şirinkar, Nakam!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kim olmaz aşiqi Fərhad əncam?

## MƏHİNBANUNUN VƏFATI VƏ ŞİRİNİN PADŞAH OLDUĞU VƏ FƏRHADİ-MİSKİNİN CƏMALİ- ŞİRİNİ MÜŞAHİDƏ QILDIĞI

Məhinbanu olub nasaz bir dəm,
Vəsiyyət eyləyib Şirinə möhkəm.
Ana təslim edib gənci-kilidin,
Cahandan əl çəkib, kəsdi ümidin.
Verib canın, vida qıldı cahandan,
Cüda oldu iki şirin candan.
Qalıb Şirinə təxti-padşahı,
Fəruği-mülkü tutdu Mehrü Mahi.
Olub ədlilə xoşdil bayü dərviş,
Cahanda qalmadı bir kimsə dilriş.
Həmarə ol nigari-mahpeykər,
Qılırdı iştihayi-şirü şəkkər.
Əgər olsaydı min halva mühəyya,
Ana bir şir idi ancaq güvara.
Cəragahi-gəllə dur idi andan,
Gəlincə hər zaman şir ol məkandan,
Təhəmmül eyləyirdi intizarə,
Vəli cuyan idi bu əmrə çarə.
Dedilər, vardır bir mərdi-ustad,
Mühəndisdir hünərvər, adı Fərhad.
Əgər eylərsə dərəhdə bu kari,
Edər sənətlə cuyi-şiri cari.
Həman dəm etməyə Fərhadı ehzar,
Mühəyya qıldı bir peyki-xoşətvar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Verib əmr, etdi ol peyki rəvanə
Ki, Fərhadı gətirsin çapukanə.
Olub qasid rəvan çapuk həva tək,
Cəhani qıldı peymudə səba tək.
Təcəssüm eylədi Fərhadı buldu,
Gətirdi qəsri-şahə daxil oldu.
Həman bir gürsü acu zəralud,
Edib Fərhad üçün məxsus mövcud.
Qılıb qürbündə Şirin məqamın,
Dü bala eylədilər ehtiramın.
Olub dilmüztərib naçar Fərhad,
Təfəkkür etdi kim, ey zar Fərhad.
Dəruni-pərdədən baziyi-gərdun,
Nələr etsə gərəkdir bunda birun.
Şəb-xunsaz olub nagah dövran,
Açıldı pərdə, çıxdı baziyi-can.
Gəlib Şirinü şirin qıldı avaz,
Ləbində xəndeyi–şirini-şəkərsaz.
İki pürpiç zülfü ənbəramiz,
İki ləli-rəvan baxşi-şəkkərriz.
Kəməndi həlqə-həlqə tabdadə,
Nigahı-məstü ğəmzə abdadə.
Kəman əbruvani zəh kəşidə,
Dili–nahidi-tərindən rəmidə.
Xurami-dilruba, qəddi dilara
Qiyamət qamətində aşikara.
Həvayi-türrəsi minu Nəsimi,
Dəhani nöqteyi-mövhumə həmi.
Pəriruyu, güləndamü füsunsaz,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Büti-naz, afərinü işvəpərdaz.
Edib zahir o məhbubi-füsunsənc,
Kirişmə bərkirişmə, ğənc–bər-qənc.
İki yaqut qıflın qıldı məftuh,
Dəhani içrə buldu ləfzlər ruh.
Onunçündür onun Şirin nami.
Ki, şirin idi şəkkərdən kəlami.
Nə Şirin kim, edən avazəsin guş,
Olurdu gər Məsiha olsa bihuş.
Nə dəm qılsaydı Ləlin güşadə,
Qalırdı guş edənlər üftadə.
Görüb Fərhadı Şirin eylədi naz,
Əsirin gördü, oldu işvəpərdaz.
Gəlib meydanə hüsn səxt bazu,
Yəli-eşq ilə oldu həmtərazu.
Dili-Fərhaddən eşq oldu nalan,
Ruxi-Şirindən hüsn oldu xəndan.
Gəlib göftarə Şirini-süxəndan,
Edib məftununə min nazi-pünhan.
Əyyan etdi girişmə, naz qıldı,
Ləbi-ləlin süxənpərdaz qıldı.
Təbəssüm eyləyib oldu şəkkərbar,
Dedi kim: mərhaba, ey nikdidar!
Nədir peşən, kim olmuş ustadın?
Nədir adın, nə yerdir bumi-zadın?
Ki, məqbulü ədibü xoşliqasən,
Ki, guya bir şədimi-aşinasən...
Dedi Fərhad kim, bir namuradəm,
Adım Fərhaddır, Çini nəjadəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həmişə sənətim canbazlıqdır,
Hüzurində künun məskinü dilriş,
Sana bir bəndəyəm ixdasəndiş.
Bu əbdi iştirak qıl, eylə dilşad,
Qulamın qıl səvadan eylə azad.
Dedi Şirin açıb nitq dilaviz,
Edib zahir füsun işvəamiz.
Ki, bu dərgahə kim olsa tələbkar,
Gərəkdir olsu o əbdə vəfadar.
Ki, cümlə  ömrümüz rəncü təəbdir,
Tedadımız füsundur, bisəbəbdir.
Bu dərdə bəndəlikdir ömri-düşvar.
Ki, bu dərgahdə digərgunədir kar.
Bu dərgahın kim olsa mübtəlası,
Cigər qanı olur daim qidası.
Görüb hər dəmdə min rənci-dilazar,
Olur hər ləhzə min dərdə giriftar.
Onun canı gərək fulad olsun
Ki, bu rənci-giranə tab bulsun.
Sənin var isə bu tabü təvanın,
Dili-ahənü səngi-fulad canın.
Gəl isbati-vücud et bu bəladə,
Vəilla, bundan et sərfi-iradə.
Dedi Fərhad: Mən ol səxtcanəm
Ki, eşqin möhnətilə şadmanəm.
Edib cövri-atəşin peyvəstə cansuz,
Həvayi-cövrünü qıl atəşəfruz.
Dilim büryani–nari-biamal et,
Sərapa yax vücudum, imtahan et!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dedi Şirin: Budur ancaq hərasim
Ki, yeksər kərəm surətdir həvasim.
Firuzam eylər isəm nari-kini,
Güdazəndə olur Fuladi-Çini.
Dedi Fərhad: Yoxdur bakim andan–
Ki, aşiq eyləməz əndişə candan.
O dəm kim, rahi-eşqə meyl edər dil,
Füsuni-əqli olur bilmərrə batil!
-Nədir sirri-məhəbbət?
Sordu Şirin-
Ki, üşşaqə olur ol sirr rəngin?
Dedi Fərhad: O, bir dilkəş əsərdir
Ki, adabi-vəfadə cilvəgərdir.
Dedi Şirin ki, fövci-gülruxanda,
Vəfa buyi görünmüşmü cahanda?
Dedi Fərhad: Odur ümmidi-məchul,
O ümmid ilədir üşşaq məşğul.
Dedi Şirin: Nədir daruyi-hicran?
Dedi Fərhad kim, didari-canan!
Qərəz, hər bəhsdən sordusa Şirin,
Verib bir pasuxi-məqbulu rəngin.
Əsiri-payi-bəndi-eşq Fərhad.
Zəlilü müstəməndi-eşq Fərhad
Görüb Şirini, göftarın qılıb guş,
Olub xuni-bəla bağranda dərcuş.
Dilində zahir oldu təbili-pünhan,
Edib bir ah, düşdü xakə qəlyan.
Bilib Şirin ki, Fərhad oldu məftun,
Açıb ləb eylədi bir tazə əfsun.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Baxıb Fərhadə bir gəz xəndə qıldı,
Ona can verdi, bir də zində qıldı.
Dedi ol dəm ki, ey ustadi-dana!
Hünərmənda-cahansan, həm təvana.
Ümidəm ki, məni şadan edərsən,
Bu qəsri şir ilə ruyan edərsən.
Kəllə durdur, biz möhtaci-şiriz.
Sənindir əmr, biz fərmanpəziriz.
Çəkərsən səngdən bir cuyi-möhkəm
Ki, ondan şir edər cəryan hər dəm.
Sənin adın olub aləmdə məşkur,
Olursan ta əbəd məmduhü məşkur.
Süxənpərdaz olub şirinü şirin,
Edər guş onu Fərhadi-miskin.
Əgərçi göftkusin guş edirdi,
Vəli mənasını fəramuş edirdi.
Qalıb valeh, cavabı qıldı fərmuşt,
Səriən çeşmi üzrə qoydu ənguşt.
Çıxıb Fərhad tişrə tişə bərbəst,
Şərabi-eşqdən dilkərmü sərməst.
Sual etdi dedi, ey əhli-əzan
Ki, mən məsvəm, olur mədhuş məstan.
Bana nə əmr qıldı şahi-xuban,
Fədadır filməsəl məqsud isə can.
Hekayət söylənib bir dəxi təkrar,
Olundu mətləbi-Şirin pədidar.
Olub agah Fərhadi-bəlabin
Ki, cuyi-şir imiş məqsudi-Şirin.
Təhəmmül eylədi rənci-giranə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hünərlər qıldı zahir çapukanə.
Təni-xaki-dəridə qıldı yeksər,
Çəkib bir cu bəsani–cuyi-Kövsər,
Təraşidə qılıb min səngi-xara,
Sərapa cuyi-şirə etdi məcra.
Qılıb yek-digərə peyvənd səngi,
Edib sənətlə yek manənd səngi.
Əlavə qıldı həm bir daxi anda,
Hərimi-qəsrdə şayan məkanda.
Mürəttəb eylədi bir hövzi-dilçu
Ki, Hövzi-Kövsər oldu afərin gu.
Yetib payanə axər tişəkari,
Dəruni hövzə oldu şir cari.
Rəvan Şirini etdilər xəbərdar
Ki, cuyi-şiri-hövz olmuş pədidar.
Gəlib ol huriyi–gülzari-rizvan
Tamaşa qıldı hövzi, oldu heyran–
Ki, hövz şərbəti-şir rəvandır.
Verib Fərhadə yer qürbündə Şirin,
Edib Fərhadə min təkrimü təhsin.
Qılıb Fərhadə hər dəm min sitayiş,
Edib izhar min üzri-nəvaziş.
Neçə bir gövhərü tabanü rəngin
Ki, etmişdi onu mənguşi-Şirin
Güşad etdi rəvan guşindən anı,
Sənayi məzirət guya zəbani.
Qılıb təqbil edib Fərhadə təqdim.
Edib təzim bir də qıldı təslim.
Alıb gövhərləri Fərhadi-heyran,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Olub Şirinə hər dəm afərinxan.
Sirişki-didəsilə etdi rəngin,
Anı qıldı nisari–payi-Şirin.
Demə, Nakam, süd etməz bu sevda,
Olur aşiqlərin sevdası yekca.

## FƏRHADIN EŞNİ-ŞİRİNƏ GİRİFTAR OLDUĞU VƏ AŞİQİ-ŞEYDA OLMAĞI, ALƏMDƏ İŞTİHAR BULDUĞU

Çıxıb Əfsus ilə Fərhad andən,
Olub birun behişti - Cavidandən.
Qeyudi–dünyəvidən pagüşadə,
Vəli boynunda qəmdən min qəlladə.
Olub məst ləbi məqami-Şirin,
Zəbanində həmişə nami-Şirin.
Gəhi giryan, gəhi nalanü nalan,
Gəzirdi subəsu heyranü heyran.
Təəşşüq atəşindən axəri-kar,
Dilində oldu min suziş pədidar
Təhəmmül etmədi bu macərayə,
Rəvan oldu xərabati-bəlayə.
Gəlib qarşıya bir çalaki-saqi,
Şəkibasuzü afətnaki-saqi
Rüxündə atəşi-Musa pədidar,
Əlində sağəri-zərrin sərşar.
Necə saqi cəmali-aləmara,
Necə mey əşki-aşiqtək müssəfah
Necə saqi rüxi mehri-dirəxşan,
Necə mey ruhbəxşi-eyşbazan,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Necə saqi ki, hurayi-behişti,
Necə mey ki, meyt–Kövsəri-sərəşti
Necə saqi ki, ləli şəkkərəfşan,
Bəsani-qönçeyi-növxizi-xəndan.
Necə saqi ki, canbəxşi idi ruyi,
Kəməndi-gərdən dili–tari-muyi.
Qılıb min şiveyi-dilkeş pədidar,
Edib hər şivəsində mehrin izhar.
Dedi Fərhadə: «Tut bu cami, nuş et!
Mənuyyət xərmənin yax, tərki-huş et!»
Rəvan ol sağəri Fərhad edib nuş,
Cahanı eylədi yeksər fəramuş
Şərab amadə, saqi ru guşadə.
İrişdi ərşə nuşanuşi-badə
Pəyapey mey verib Fərhadə saqi,
Edib Fərhadı məst badeyi-saqi.
Əsiri-eşq edib, dərdam qıldı,
Qərarın aldı, biaram qıldı.
Olub Fərhadə çirə badeyi-nab,
Dəxi səbrü qərarə bulmadı tab.
Edib saqini canıtək dərağuş,
Alıb ləli-ləbindən buseyi-nuş
Camalın seyr edib qıldı tamaşa,
Tamaşa eyləyib gördü həmana.
Haman Şirin xəndandır bu saqi,
Çıxıb ol bəzmdən sərməstü heyran,
Dilində atəşi-sevda firuzan.
Bəlayi-eşqdən halı digərgun,
Gözü giryan, dili nalan, cigər xun.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dəruni-atəşindən varə-varə,
Birunində olub peyda şərarə.
Nə tən qaldı, nə dil qaldı, nə cani,
Yaxıldı nari-eşqə xanimanı.
Həzinü bidili naşad Fərhad,
Şəhidi–tişeyi-bidad Fərhad.
Olub dildadeyi–sevdayi-Şirin,
Əsiri-zülfi-ənbərsayi-Şirin.
Nəhibi-eşqdən bixişü mədhuş,
Ləhibi-eşqdən əndamı dər cuş.
Səhami-möhnətin amacgahi,
Qılıb tirə cahanı dudi-ahi.
Dəhanında haman Şirin nami,
Dəhani içrə şirin təlx kami.
Vəhiş asa tutub rahi-biyaban,
Vəhuş içrə gəzib heyranü nalan.
Olub faş aqibət sirri–nəhani,
Cahanda buldu şöhrət rastani.
Necə, Nakam, olunsun eşq məktum,
Ki, buyi-müşk olur naçar məlum
Təəşşüq nəşəsi  peyda gərəkdir.
Giriftari-bəla şeyda gərəkdir.

### FƏRHADIN MÜBTƏLAYİ–EŞQİ-ŞİRİN OLDUĞUNDAN XOSROV PƏRVİZİN AGAH OLDUĞU VƏ EHZARİNƏ FƏRMAN VERDİYİ

Olanlar vaqifi–əhvali-Fərhad,
Ediblər boylə bu bəhslə fəryad.
Ki, Şirinə həman Fərhad asa,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Verib Xosrov dil, olmuşdu şeyda.
Dedilər Xosrov Pərvizə nagah,
Edib əhvaldan ol şahı agah
Ki, Şirinə olub Fərhad məftun,
Biyabankərd olubdur didə pürxun.
Dəmadəm nami-Şirini qılıb yad,
Töküb qan, eyləyir hər ləhzə fəryad.
Qəmi-Şirindən daim şəbü ruz,
Gözü xunpaşdır, ahi cigərsuz.
Qılıb Şirin hərimin cənnətabad,
Edibdir cuyi–şiri-hövz bünyad.
O gündən aşiqü heyran olubdur,
Görüb Şirini sərgərdan olubdur.
Yaxıbdır nari-eşqə xanimanın,
Qılıbdır kuhi səhradə məkanın.
Behər həftə gəlir kuyi-nigarə,
Edir bir guşədən bir dəm nəzarə.
Qılıb səhra təriqin bazi-dərpiş,
Gedir səhralara giryanü dilriş.
Olub qane bu didar ilə hər bar,
Olur mehman xani–çəhreyi-yar.
Şəbəngahan gəlib gahi olur sir,
İçib ol hövzeyi-Şirindən şir.
Həmin bu Şirdir şürabi-qəzasi,
Yox ondan qeyri əklə iştəhasi.
Dolaşıb sübhədək ol hövzü nalan,
Səhərgahan gedir səhrayə giryan.
Çü Xosrov etdi bu keyfiyyəti guş,
Rəgində xuni-qeyrət eylədi cuş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ki, necə cilvə qılmış ol mahi-nov,
Bəraşüftə olmuş yai-Xosrov.
Dedi: Xəndan olursa tazə bir gül,
Edər eşqində fəryad iki bülbül.
Olursa bir gövhər iki giridar,
Olur ol gövhərin qədri pədidar.
Olub qəlbində peyda rəngi axir,
Edib Fərhadə rəsmən mehr zahir.
Qılıb ehzar Fərhadi müqərrər,
Edib tənbihü tərtifin mükərrər.
Rəvan fərman verib bir pəhləvanə,
O aşiq suyinə qaldı rəvanə.
Bu peyki-xoşxuramü nikəxtər,
Dolaşıb kuhü səhranı sərasər,
Təcəssüm eyləyib ol namuradı,
Əsiri-dilşüdə Fərhaddır adı.
Nə bulmuşdu məkanın, nə nişanın,
Qalıb heyran olub nomüd anın,
Gəzərkən nagahan bir rəhgüzərdə,
Təsadüf eylədi bir əhli–dərdə-
Ki, halından deyildi kimsə hali,
Düşüb torpaqda sayə misadi,
Fəğani rədü-ahi bərqi-suzan,
Gözü əbri-bahar, barəşəfşan.
Dəridə pirəhən, əfsurdə-ətfar,
Üzündə eşq asari pədidar.
Çü qasid gördü ol fərsudeyi-zar,
Fəğanında qılıb hər bar təkrar.
Deyir hər dəm ki: «Ey canan Şirin!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fəda olsun sana min can Şirin!»
Görüb əhvalın ol əfsurdə halın,
Eşitdi naləsin, bildi məalın.
Yəqin etdi ki, Fərhadi-cavandır,
Təəşşüqi-möhnətdən natəvandır.
Ona qıldı təvəccah, etdi ikram,
Dedi: «»Ey aşiqi–Şirini-xodkam!
Nədir bu nalə, bu fəğan, bu xunab?
Nəçün üftadəsən, bisəbrü bitab?
Nəçün bəzmi-tərəbdən dur olubsan?
Nəçün bədhal olub, rəncur olubsan?
Edərsən müzməhəl tabü təvanın,
Gərəkməzmi sana bir daxi canın?
Mənəm peyki-rəvan şahi-Xosrov,
Qulami-dərgaha-Cəmcahi-Xosrov
Sana mehri-dərunin qılmış izhar,
Tələb qılmış səni şahi-cahandar.
Yetər fəryadü ahi-aşiqanə.
Yetər qəsd etdiyin bu rütbə canə.
Mənimlə həmrah ol, yar ol, rəvan ol.
Sərəfrazi-Hüzuri-Xosrovan ol!
Açıb ləb aşiqi-fərzanə Fərhad,
Təriqi-eşqdə mərdanə Fərhad.
Dedi kim: Ey cavanbəxtü cavanmərd,
Zəbanim xüşk, qəddim xəm, rüxüm zərd.
Pərişanəm, siyahruzəm bədiqbal,
Bəsan sayəyəm, xas üzrə pamal.
Həmin bir aşiqi-dildadəyəm mən,
Zəbunü bidimü üftadəyəm mən–



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ki, bir şirin ləb üçün təlxikaməm.
Ki onun tutisifət pabəndi daməm.
Olalı eşqi-yarə mehriban mən,
Mana namehribandır dustü düşmən.
Bu möhnətlə  tərəfdən dur oldum,
Qəmi-hicrandə rəncur oldum.
Nə halımdan olur bir kimsə agah,
Nə könlümdən olur bu dərd kütah.
Kimə dərdim deyim kim, heç kəs yox,
Mənə bir mehriban, bir dadrəs yox.
Məni bir halım ilə tərk eylə,
Rəvan ol, məclisi-Xosrovda söylə–
Ki, hər çi cüstcu qıldımsa anı,
Zühurə çıxmadı namü nişanı.
Təriqi-eşqdə üşşaqə, Nakam,
Degil məqsud hərgiz qeyri-ənam.
Həmin üşşaqə bəsdir künci-xəlvət,
Təmənnayi-vüsali-dərdi-firqət.

## FƏRHADIN MƏCLİSİ-XOSROVDA HAZIR OLDUĞU VƏ  XOSROVUN BİSÜTUNDAN GÜŞAD RAH ETMƏYƏ  FƏRHADI VADAR QILDIĞI

Edib ol peyk agəh xirədmənd,
Xudayi–vahidi-canbəxşə sukənd.
Dedi kim: «Şah qılır mətlubi hasil,
Səni eylər vüsali-yari vasil.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mükərrər eyləyib əlka...əbram,
Rəmidə aşiqi axir qılıb ram.
Dili–naşadi-birlə qalxdı Fərhad,
Deyib Şirin-Şirin etdi fəryad.
Həmin qasidlə həmdəstan, həmpa,
Olub həm ruz, həm şəb rahpeyma.
İki həftə mürur etdikdə axir,
Busati-Xosrovidə oldu hazır.
Nə tacə, nə sərirə oldu racib,
Nə şahə eylədi ərzi-mətalib.
Rəvan bir guşədə tutdu nişimən,
Fələklərdə mələklər qıldı əhsən!
Görüb Fərhadı Xsorov boylə pərişan,
Tabaqla başına oldu zərəfşan.
Qəmi-Şirin ilə məşğul Fərhad
Nisara baxmadı, olmadı dilşad.
Baxıb Fərhadə gördü şahi-davər
Ki, yeksandır ona xak ilə gövhər.
Rumuzi-eşqə ətf etdi sualın,
Bu bəhslə dəxi buldu kəmalın.
Nə yerdə sordu kim darül-qərarın,
Nədir adın, o yerdə kəsb karın?
Dedi: «Fərhad adım, bir mübtəladır,
Məqamım dari-mülk aşinadır.
O yerdə qəm verirlər can alırlar,
O yerdə can verib, canan alırlar. »
Açıb təklifə ləb bir də şahi-nov,
Səriraryi şahi-yəni Xosrov.
Dedi: «Şirinin eşqindən güzər qıl!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu vadidə xətər çoxdur, həzər qıl–
Ki, Şirindir mənə məxsus məhbub,
Mənim məhbubim olmaz qeyrə mətlub.»
Eşitdi bu sözü biçarə Fərhad,
Olub halı digərgun, qıldı fəryad,
Bəsani-rəd əfqanı xuruşan,
Bəsani-bərq ahi atəşəfşan.
Dedi şahə: «Xəyali-xam edirsən!
Təmam aşiqləri bədnam edirsən.
Degilsənmiş rumuzi-eşqə agah,
Rəhi-xassan degil bu tutduğun rah!
Ki, aşiq eyləməzsə can tərkin,
Olurmu eyləmək canan tərkin?
Təəşşüq tərki mümkündürmü, aya,
Olurmu fəsli-surətdən həyula?
Mənəm məstaneyi–səhbayi-Şirin,
Mənəm-aşufteyi-sevdayi-Şirin.
Xoşam Şirinin eşqində dəmadəm,
Olursa hər səri-muyimdə min nəm.
Çıxar canımdan eşqi–çeşmi-Şirin,
Fələkdən gər pozulsa əqdim-Pərvin.
O yer kim, eşq onda xeyməzəndir,
O yerdə əql ol Kuhkəndir.
Dili aşiqdə olmaz bimü təşviş,
Bəri-aşiqdə birdir şirü ya miş.
Dəruni aşiqin atəş gərəkdir,
Dili-üşşaq atəşvəş gərəkdir.
Məqami-eşqdir ənduhi-abad,
Neçə Xosrovdur onda, neçə Fərhad.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təəşşüq məscidir bəzmi xassan,
Olur dərvişü Xosrov onda yeksan.
Çü Fərhad eylədi bu növi təqrir,
Dili-həzzarə ahi qıldı təsir.
Olub şərməndə Xosrov qaldı məhcub,
Ki, oldu eşq dəvasında məğlub.
Həris oldu tökə Fərhad qanın,
Vəli qıldı həzər arından anın.
Dəsisəcu olub qıldı müdara,
Açıldı fəsli–bəhsi–səngi-xara.
Edib güftarını təbdil Xosrov,
Nümayan eylədi bir müşkül nov.
Dedi: «Bir kuh var kim, rəhgüzaran,
O kuhi keçməyə bulmazlar imkan.
Səubət həddən anda füzundur,
Onunçün adı kuhi-Bisütundur.
Əgər andan açıb bir rahi-sahi,
Götürsən rəhgüzərdən bu təbahi.
Nə hacət istər isən, istə məndən,
Diriğ etməm, əgər can isə, səndən.
Behəqqi–eşqi–Şirini-şəkkərxənd,
Ki, yoxdur bundan artıq hiç sukənd.
Bu müşkül həllinə bir himmət eylə
Məni nabəndi-qeyri-minnət eylə.
Cavabə eylədi Fərhad ağaz,
Dedi: «Ey padşahi-nüktəpərdaz!
Qəbulumdur bu əmri-müşkül, əmma
Bu şərti eylərəm səndən təmənna,
Ki, etsəm Bisütunu rahi cadə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Edib ol kuhdən bir rəh güşadə,
Keçib Şirindən, yad etmə namin,
Əgər təlx olsa da kami-məramin,
Qılıb xahiş nə dəm olsan şəkkərxar,
Demə şəkkər olur şirin, zinhar!
Edib şah guş bu şərti-girani,
Yaxıldı bağrına daği-nihani.
Vəli bu qeyrəti məstur edib şah,
Olub qail bu şərtə xah, naxah,
Qəbul etdim dedi bu şərti səndən,
Zühur etməz bu şərtin nəqzi məndən.
Gedib ol Bisütunla həmtərazu,
Əyan qıl, göstər onda zuri-bazu.
Təəşşüqdür müsafi-cəng, Nakam!
Olur onda həzəran rəng, Nakam!
Gərək aşiq olan mərdanə olsun,
Ki, adı eşqdə fərzanə olsun!

## FƏRHADIN BİSÜTUNDA TİŞƏZƏNLİYİ VƏ TƏRİQİ-EŞQLƏ İBTİDAİ KUHKƏNLİYİ

Alıb Pərvizdən peyman, olub şad,
Bəsani-kuh ataş çıxdı Fərhad.
Bu ol Fərhadi–mərdi-piltəndir.
Ki, məşhur adı şimdi Kuhkəndir.
Götürdü tişə, irdi Bisütunə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hünərlər qıldı zahir gunə-gunə.
Olub sevdayi-Şirin rəhnumuni,
Nigaristan qıldı Bisütuni.
Verib sənətlə daşa rəngü seyqəl,
Çəkib Şirini rəsmən anda əvvəl.
Rəvan eylə münəqqəş qıldı ani
Ki, dəstin bus edərdi görsə Mani.
Əz an pəs surəti-xərgahi-şahi,
Sinan tişəsi bir ləh gümahi.
Edib təmsil səngə cayi-bərca;
Təmami dilpəsəndü heyrətəfza.
Çü övrəti-bəndəlikdən oldu azad,
Götürdü tişəsin azadə Fərhad.
Xəruşi-Bisütunə açdı bazu,
Dağıtdı səngi-səxti suyi-basu.
Nə yerdən tişə ursə ol hasarə,
Olurdu məntəmis bir bürc parə.
Fərakət etməyib vəqti-səhərdən,
Olunca mehr puşidə nəzərdən.
Olurdu səng əfkən, kuhəndaz,
Bə yadi–mehri-Şirin sərəfraz.
Deyil, Nakam, kari-eşq asan,
Olubdur eşqdə çoxlar hərasan.
Bu dari-girə möhkəmdil gərəkdir
Ki, əhli-eşq Rüstəmdil gərəkdir.

### FƏRHADIN ŞƏBƏNGAHAN MÜDƏVVİM TƏSVİRİ-ŞİRİNƏ RƏVAN OLDUĞU VƏ TA SƏHƏR ZARİ-KÜNAN ƏRZİ-ƏHVAL QILDIĞI



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şəbəngahan edib fəryad Fərhad,
Əsirü bikəsü naşad Fərhad.
Qılırdı ta səhər fəryadi-dilsuz,
Edirdi ahini şəmi-şəbəfruz.
Gəlib didar təsviri-nigarə,
Qılıb təsviri Şirinə nəzarə.
Cəmali-surətin seyr eyləyirdi,
Edib pabus halin söyləyirdi.
Ki: «Ey sərvi-gülandamü şəkkərxənd,
Qəmindən olmadım bir ləhzə xürsənd.
Qənaət eyləmişdim bir nigahə,
Necə kim, baxılır çərx üzrə mahə.
Fələk bazicəsin məlum qıldı,
O Fərhadın ki, bir bixiştəndir,
Künun gəl bax da gör kim, Kuhkəndir.
Kəməndi-eşqin ilə paybəndəm,
Bəlayi-firqətindən dərdməndəm.
Cigər dər tab, dil dəryayi-xundur,
Əgər rəhm eyləsən vəqti künundur.
Bulubsan tazə bir şayəstə yari,
Məni yadi eyləməzsən daxi bari.
Şəkərriz olduğun dəm, güli-növ,
Bəyan et soylə kim, ey şahi-Xosrov!
Necə oldu halı Fərhadi-zəbunun,
Necə oldu əhdi-şərti Bisütunun?
Qoyub heyrətdə çərxi–adgunu,
Edib nabud kuhi-Bisütunu.
Sənin eşqindən ey canan Şirin,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fəda etsəm gərəkdir can Şirin.
Ki, mən iqbalın etdim azmaiş,
Mənim bəxtimdə yoxdur bir Güşaiş.
Bu peykar içrə kim, dəryayi-xundur,
Bir adı daxi həmin Bisütundur.
Əgərçi xürrəmdə saib də olsam,
Əlanən xəsmimə qalib də olsam.
Budur vəhmim olub iqbalım idbar,
Qalır xəsmə girov zinharü zinhar.
Ki, bu karə məni təhrik edən kəs,
Həlaki-canıma qəsd eyləmiş bəs.
Mənə bədxahdır Xosrov kimi şah,
Nedim mən kim, mənədir şah bədxah?
Mənim kinim alır ondan zəmanə,
Olur ol daxi mən tək qərq qanə.
Mənim tək olmasın bir kəs bədəhval,
Əsirü bikəsü bərgəştə iqbal.
Qəribəm, binəvayəm, natəvanəm,
Pərişanxatirəm, bixanimanəm.
Qəmi-eşqindən, ey şəmi-diləfruz,
Budur halim mənim daim şəbü ruz.
Bu dəhlizi-fəna olmuş mənə təng,
Məkanımdır bu kuhü bu dilsəng.
Bu növ ilə olub ta sübh nalan,
Üfüqdən sübh olduqda nümayan.
Cəbinfərsi olub payi-nigarə,
Pələng asa çıxırdı karzarə.
Alırdı tişeyi-xaraşekafi.
Qılırdı səngi-səxt ilə müsafi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Müsafi döndərirdi rəsti-xizə,
Edirdi Bisütuni rizə-rizə.
Səhərdən şamə-tək Fərhad cəngi.
Xəraşidə qlıb peyvəstə səngi,
Şəbəngahan qalıb fəryadə ahənc.
Edirdi könlünü şam ilə həmahəng.
Sədası aqibət Fərhadi-zarın,
Alıb əhli-dilin səbrü qərarın.
Cahanda Kuhkəndən bir fəsanə,
Edirdi nəql hər kəs yanə-yanə.
Gəlirdi fövc-fövc ətrafdan həm,
Bu heyrətgahə hər dəm xəlqi-aləm.
Tamaşa eyləyib heyran olurdu,
Onun əhvalına giryan olurdu.
Cəfayü möhnəti-üşşaqi-Nakam,
Bəsayi-həsrəti-üşşaqi Nakam.
Təsəvvürdən, təəmmüldən füzundur,
Bu dərdin ən xəfifi Bisütundur.

## ŞİRİNİN BİSÜTUNA GEDİB FƏRHADƏ ETDİYİ NƏVAZİŞ VƏ FƏRHADIN TAMAŞAYİ-DİDAR EDİB ŞİRİNƏ QILDIĞI SİTAYİŞ

Təəşşüqdə olanlar naili-gənc,
Bu məzmun ilə olmuşlar gövhərsənc–
Ki, Fərhad olduğu dəm səngi-fərsa,
Ona əfsus edirdi gibrü tərsa.
Zəban məzur ikən bu macəradən,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cəhan pürşur ikən bu macəradən.
Mübarək gündə bir fərxundə dəmdə,
Pəriruyan ilə Şirin hərəmdə,
Bahar saidi xəndanü xürrəm–
Ki, hala görməmişdi məclisi-qəm.
Büsati-işrətü bəzmi-tərəb saz.
Gəlirdi hər pərirüxdən bir avaz.
Biri keçmiş sürurи yad edirdi,
Anınla əhli-bəzmi şad edirdi.
Biri ayəndədən etdikdə təlqin,
Edirdi guş anı şirin-şirin.
Mələkruyanü nazikbinü haziq,
Kəlami təbi-Şirinə müvafiq
Müsəlsəl söylər ikən axəri-kar,
Hədisi-Bisütun oldu pədidar.
Olub xəndan dedi ol şahi-xuban,
Bu gün etsəm gərək kuhi-gülüstan.
Görüm kim, Bisütunda tişəzəndir,
O fərhad cavanmı kuhkəndir?
Görüm Fərhadi–ahənçəngi-cəngi,
Necə qılmış xəraş ol kuhi-səngi?
Çəkildi ziri-zinə badpayan,
Səvar oldu onunla mahruyan.
O rütbə cüst etdi o şahi-türkan
Ona təhsin edirdi şahsüvəran.
Səvar oldu rəvan meydanə gəldi,
Səməndi-badipa cövlanə gəldi.
Rəvan oldu bəsani-məsti-tavus,
Hilal etdi səməndin nəlini bus.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İrişdi kuhi-səngə kuhi-simin,
Müənbər zülfü qıldı kuhi müşkin,
Təcallayi-rüxi-nəyirnümuni.
Bəsani-Tur etdi Bisütuni.
Düşüb əksi-rüxt, səng oldu rəxşan,
Bəsani-Ləli–rəxşani-Bədaxşan.
Onun ləli-ləbin kim eyləyib yad,
Edirdi rizə-rizə səngi Fərhad.
Ki, səng içrə bulur bərkə məramı
Çü səng içrə olur ləlin məqamı.
Çü Şirin məqdəmindən agah oldu,
Nəinki ləl, bir yaqut buldu.
Götürmüşdü bərabər ol şəkkərriz,
Sürahi içrə şiri-şəkkəramiz.
Olub saqisi Şirin, tutdu bir cam,
Dedi: «Ey aşiqi-məstü biaram!
Deyil vəqti-ələm, həngameyi-qəm,
Qənimət bil bu vəqti, söylə xürrəm.
Qədəh tut, göftu qıl, olma xamuş,
Mənim adımla qıl bu sağəri nuş!»
Açıb göz gördü çün Fərhadi-miskin,
Durubdur qarşıda canаnı Şirin.
Olub xuni-rəg cismində cuşan,
Dilində iztirab oldu xuruşan.
Təcallayi-cəmalə bulmayıb tab,
Gözündən cuş edib qətrati-xunab.
Edib fəryad, olub məbhutü xamuş,
Misali-mürdə düşdü xakə mədhuş.
Çü Fərhad oldu qəltan xak üzrə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şəkkərləb gəldi ol qəmnak üzrə.
Səri-zülfündən oldu ənbərəfşan,
Üfaqət buldu Fərhad pərişan.
Zəbun məsru tək bir dəm bulub huş,
Qəmi-dirinəsin qıldı fəramuş.
Əyan gördü o mahi-tabnakı,
Yüzü üzrə düşüb bus etdi xakı.
Götürdü başını bir dəxi təkrar,
Edib heyran-heyran seyri-didar,
Yəqin gördü ki, Şirini-zamandır,
Rəvanbəxşi-təni-dili-mürdəkandır.
Düşüb torpağa ol ənduhi-mənus,
Dübarə səmi-Rəxşin eylədi bus.
O məh gördü ki, Fərhadi zəbundur,
Qiyasi-həddən eşqi füzundur.
Rəvan verdi ona bir cam şərbət
Ki, Kövsərdə bulunmazdı o ləzzət.
Alıb Fərhad camı eylədi nuş,
Nə qəm çəkmiş isə qıldı fəramuş.
Nə xoşdur kim, olub canan saqi,
Verib bir cam, alarsan can, saqi!
Olub Şirin kimi saqi həmağuş,
Nə şərbət, zəhr versə, nuş olur, nuş!
Əgər firdovedəndir bir nümunə,
Xəta etməm, deyərsəm Bisütunə.
Ki, Şirin-saqi, şərbəti–şiri-şəkkər,
Bu huri, bu şərab, hövzü Kövsər.
Açır Şirin ləbin oldu şəkkərriz,
Əyan etdi bəyani-şəkkəramiz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ki, ey Fərhadi-fərzanə, nədir hal,
Nədir bu Bisütun, bu kürzü kupal?
Nədir bu tişə, bu pişə, bu cuşiş,
Nədir bu guh, bu xara, bu guşiş?
Nə istərsən bu kuhi-Bisütundən,
Nə istərsən bu səngi-səxtgundən?
Nəçün pabəndi-qeydi–Bisütunsən?
Açıb ol dəm zəban Fərhadi-nalan,
Həzar zar tək oldu sərayan,
Sərildi sayəsində ol humayin,
Sürüb xakə üzün, bus etdi payin.
Dedi: «Yara, Əziza, novbahara!
Həmişə səbzü xəndan ol, nigara!
Ki, sənsən mülki-hüsnün padşahi,
Dili-üftadənin sənsən pənahi!
Həmin sənsən çirağı–çeşmi-Fərhad,
Bənd olsun rüxündən çeşmi-bidad!
Sən ol sərvi-rəvan, müşkbusən,
Ki, gülzari-vəfadə tazə rusən.
Bu gün bəxtim olub bidar piruz,
Səni seyr etdim, ey mehri-diləfruz.
Bu gün möhnətdənəm azad, yara!
Cəmalın gördüm, oldum şad, yara!
Edib təsir fəryadü əninim,
Əyan gördüm səni, ey nazəninim!
Ki, sən bir sərvsən, xəndanü dilşad,
Zəhm tale ki, etdin yad Fərhad!
Əgərçi can ilə xidmətgüzarəm,
Vəli, ey məh, səndən şərmsarəm!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ki, candan qeyri cizi-digərim yox,
Dürri-əşkimdən özgə gövhərim yox,
Olaydım ta qədəmində zərəfşan,
Nəinki zər, olaydım gövhərəfşan.
Nə bir aramgahım var ki, anda–
Bulub bir ləhzə rahət ol məkanda.
Olaydın mehman sən, mizban mən,
Olaydım canfəşan mən, canatan sən.
Həmin can içrə var bir cayi-rəncur,
Qəbul etsən olur nurəlanur.
Məni xoşbəxt qıldın, ey dilara,
Bu bir ləhzə daxi məks et, nigara!
Açıb bir fəsli-bəhs möhnətimdən,
Səni təqrir edim keyfiyyətimdən.
O dəm ki, cuyi-şir idi mupadın,
Mənə var idi anda etimadın.
Sənə mənzur idi bu əmri–mübhəm,
Ki, icrasından idi aciz aləm.
Məni bu müşkülə məmur qıldın,
Cəmalın göstərib məsrur qıldın.
Kəməndi-zülfünə dilbəstə oldum,
O gündən aşiqi dilxəstə oldum.
Əlimdə həll olub ol əmri-düşvar,
Hünərlər eyləyib onda pədidar.
Təraş etdim həzaran səngi-xami:
Ki, imdi şirədir macra təmami.
Mürəttəb eylədim bir hövzi-xoştər,
Ki, oldu qibtəbəxşi–hövzi-Kövsər.
Səri-kuyin künun xüldi-bərindir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ki, hurisi sənintək nazənindir.
Cəhanda görməmişdir kimsə əsla
Behişti–cuyi–şiri-hövzü hura.
O gün ki, hövzdan şir eylədi nuş,
Məni qıldın həmin gündən fəramuş.
O gündən, ey nigari-şəkkərəfşan,
Məni yad etdiyin yoxdur ilə əlan.
Məni bu dərdə bimar qoydun,
Məni bu rəncdə bizar qoydun.
Deməzsən qəmküsarım kimdir, ey məh!
Ənisim, qüssə xarım kimdir, ey məh!
Sənin məzlumunəm, ey dadxahim,
Sənin üftadənəm, sənsən pənahim!
Sən atmışsan məni bu kuhsarə,
Sənin sərgəştənəm, sən eylə çarə,
O dəm ki, eşqinə dildadə oldum,
Zəbunü bidilü üftadə oldum.
Deyildi hiç məlumum şəbü ruz,
Qılıb fəryad, edirdi ahi-dilsuz.
Biyabangərd idim vəhşilərasa,
Məqamım olmuş idi kühu səhra.
Mənimlə vəhşiyan olmuşdu dəmsaz,
Dədü dam ilə olmuşdur həmavaz.
Bə hər həftə gəlirdim xaki-payə,
Baxırdım bədənsan tazə ayə.
Yenə övdət qılıb səhrayə heyran,
Olurdum eşqin ilə zaru nalan.
Sən idin daimən fikrü xəyalim,
Bu növ ilə keçirdi mahü salim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilib əhvalım axır, ey güli-növ,
Xəbərdar oldu zərrintac Xosrov.
Hüzurində məni ehzar qıldı,
Neçə bir nüktələr dərkar qıldı.
Cabın söylədim ol nüktədanın,
Ki, oldu aqibət məhcubi anın.
Nəhayət, boylə bir tədbir etdi,
Məni pabəsteyi-zəncar etdi.
Kim oldusa ol şahım rəhnümuni,
Mənə göstərdi şah bu Bisütuni.
Səng həm nami-Şirin qalıb yad,
Mənə sokənd verdi şahi azad.
Sənin adın ki, etdim şahdan guş,
Şüuru huşimi qıldım fəramuş.
Pəzira oldum, əhd etdim oradə,
Ki, bu kuhi edim rah guşadə.
Budur şah ilə şərtim kim, əgər mən
Qalıb zində, olursam kuhəfkən,
Bulub payan bura yetgəc xitamə,
Kuşad olduqda bunda rahi-amə,
Dəxi yad etməsin Xosrov urub dəm,
Sənin eşqin adından olsun əbkəm.
Nə sud, əmma ki, axır şahi-xunxar,
Bahanəgir olub, qanım tökür zar.
Olur şah talibi-dindarin, ey məh!
Mənim səndən əlim gütəh qılır şəh.
Edər səndən məni, ey mehi-məhcur,
Çıxar canm mənim məhcurü rəncur.
Vəli şah da bulur əcrin kəmakan,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Olur bir xəncəri sərtizə qurban.
Bunadır aqibət ham etibarım,
Onun çün bundadır hazır məzarım.
Budur halım sənin eşqindən, ey gül!
Məgər gül eyləməzmi yadi-bülbül?
Sənin eşqindən axır, ey pərizad!
Olubdur Kuhkən biçarə Fərhad.
Nəsibim bu cahandan dərd olubdur,
Sirişkim xunü rəngim zərd olubdur.
Mənim tək olmamış bir kəs bəlakəş,
Mənim tək qalmamş bir kəs dəratəş.
Mənim dərdim füzun, bəxtim nigundur,
Məqamım, gorgahim Bisütundur.
Baxıb əhvalımı gördün, nigarə!
Sənə əhvalım oldu aşikarə.
Bulub əncamımı əndişəm ilə,
Məzarım hazır etdim tişəm ilə.
Həmişə intizarəm, didə bərrah,
Bəsuyi-rahi-cəlladi-cahanşah,
Olunmuş cabərca sazbərgəm.
Dəmidir kim, irib həngami-mərgəm.
Görərlər ki, çərçi-bəhri-xunəm,
Qətli-xəncəri almagunəm.
Atalar nəşimi bu kuhsarə,
Bilən olmaz kiməm mən bəxti qarə–
Ki, mən bir bigəsü zarü qəribəm,
Bəlakeş bir mərizi-bitəbibəm.
Nə bir kəs nəşimə eylər nəzarə,
Nə dəfn eylər məni bir kəs məzarə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə bir kəs adımı yad eylər ağlar,
Nə bir kəs ruhumu şad eylər ağlar.
Ricardarəm, o dəm ki, çarü naçar,
Edərsən sən vəfa asarım izhar.
Edincə guş kim, Fərhad ölübdür,
Olubdur küşteyi-bidad ölübdür.
Xuraməndə olarsan bu diyarə,
Məni dəfn eylərsən sən məzarə.
Deyərsən kim, budur sərgəştə Fərhad,
Cahanda tadeyi bərgəştə Fərhad.
Müsafi-eşqdə padar olubdur,
Verib canın fədayi-yar olubdur.
Cahanda qalmaq üçün  yadigarım,
Yazarasan qan ilə səngi məzarım.
Ki, budur aşiqi-biçarə Fərhad,
Qəribü bikəsü avarə Fərhad.
Bir afət kuyinə düşdü güzari,
Əsiri-eşq oldu iztirari.
Anın ol dilrubə aramın aldı,
Dilin yəğma edib səhrayə saldı.
Müsafi-eşqinə ol cansitanın,
Töküldü, axdı axir qanı anın.
Kəlamın xətm edib Fərhadi–heyran,
Dedi: «Ey sərvəri-xubani-dövran!
Küdurət olmasın peyda dilində,
Məlamət bulmasın məva dilində–
Ki, aşiqdə nolur əfqandan özgə,
Sirişki–dideyi-giryandan özgə?
Ki, mən getsəm gərəkdir bu cahandan,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Niyazımdır xudayi-müstəandan
Ki, peyvəstə səni qılsın mükərrəm,
Cəvanü tazəvü xəndanü xürrəm.
Çü Şirin bu kəlami eylədi guş,
Bəhari-işrətin qıldı fəramuş.
İki badami-məsti oldu dürbar,
Düzüldü lalə üzrə dürri-şəhvar.
Baxıb Fərhadi-zarə eylədi dad,
Bülənd avazə ilə qıldı Fərhad.
Töküb şəhla gözündən əşki-xuni,
Edib giryan səngi-Bisütuni.
Dedi ol hurikirdari - pərizad,
Ki, ey Fərhad, zarü-zarü Fərhad.
Cahan içrə bilir aləm sərapa,
Ki, dərdi aşiqandır ruhfərsa.
Təriqi-eşqdə möhnət füzundur,
Biri ol möhnətin bu Bisütundur.
Şəkiba ol, təhəmmül eylə bir dəm,
Ki, əlbət, aqibət nabud olur qəm.
Olur ki, bir zaman dövri-zəmanə,
Edər bir qeyri-dövran dərmiyanə.
Əbəd qalmaz bəladə kimsə, zinhar,
Ki, aləmdə bir fəryadirəs var.
Dönür bir anda idbarə iqbal,
Olur bir dəmdə digərgunə əhval.
Olub sabir, tutub rəsmi-sükuni,
Edib nabud səngi-Bisütuni.
Açıb, əncam versən şahrahə,
Dəxi qalmaz bəhanə rahi–şahə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Verib bir cami-digər şəkkəralud,
Edib Fərhadi-zari bir də xoşnud.
Açıb əncam versən şahrahə,
Dəxi qalmaz bəhanə rahi-şahə.
Verib bir cami-digər şəkkəralud,
Edib Fərhadi-zari bir də xoşnud.
Çəbinin bus edib Fərhadi-zarin,
Yetirdi ərşə qədər iftixarin.
Dilində qəm, gözündə əşki-həsrət,
Dərunində həzaran dərdü möhnət.
Vida qıldı dedi: «Peyvəstə şad ol!
Şəbin xeyr ilə olsun, bərmurad ol!»
Alıb Fərhadın əldən ixtiyarın,
Rəvan oldu səməndi-şahsüvarın.
Rikabından o mahın zar Fərhad,
Gedirdi məstü pakubanü dilşad.
Rəhi-səəb idi ol kuhi-büləndin,
Tutuldu zəxmdən payi-səməndin.
Qalıb rəftardan aciz zəruri,
Götürməz oldu ol barii-bülluri.
Görüb cananəsin Fərhadi-məztər,
Həman Şirini Rəxşilə bərabər,
Edib bərduş ol şiri-hünərmənd,
Gətirdi qəsrədək birəncü xorsənd.
Uçub manəndi-mürci-pərgüşadə,
Hərimi-qəsrdə qıldı nəhadə.
Edib sümmi-səməndin tazədən bus,
Dönüb naçar getdi dili-purəfsus.
İrişdi Bisütunə məsti-didar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Olunca sübh oldu tişəbərdar.
Çü olmuşdu füzun tabi–şükuhi,
Qılırdı parə-parə səngi-kuhi.
Əgər min cövr edib, Nakam, dövran
Edərsə aşiqi bir ləhzə xəndan,
Olub filhal dövründən mükəddər,
Edər ol aşiqi nabud yeksər.

## NAZİMİN DÖVRÜ ZAMANIN MƏDARİ-BİAMANINDAN ŞİKAYƏTİ

Fəğan, künbəzi-firuzə bir dəm
Edərsə bir dili-piruzü xürrəm,
Olub ol etdiyi dövrə peşman,
Edər filhal min möhnət nümayan.
Fəğan kim, dövr dövrani-kənəcdiş
Qılır aşiqləri peyvəstə dilriş.
Nə yerdə aşiqi-dildadə görsə,
Nə yerdə bikəsü üftadə görsə,
Anı bitab edib dilmürdə eylər,
Anı dərdə salıb əfsurdə eylər.
Görüb dirinə kinindir dunun,
Bilib halı bu çərxi-vadgunun.
Bəliğanə təbibi-İsfəhani
Əcəbə nəzm edibdir bu bəyani.
«Fələkra, adəti-dirine inəst,
Ke, ba daldadeqan daim bi kinəst.
Becan mipərvərəd naqabelira,
Ke, ta u qomkonəd saheb deli ra.»



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həməna ta əbəddir zəmanə,
Tərəhhüm qılmayıb üftadəqanə.
Kimi görsə ki, bir qəmdən zəbundur,
Əsirü mübtəlabır, bağrı xundur.
Edib peyda hezaran dərdi-digər,
Ani dərd içrə axır məztər eylər.
Bilib ətvarını dövrü zamanın,
Görüb əhvalını dildadə qanın,
Nə xoş irşad qılmış bu kəlami
Əleyhərəhmətü rəhman Nizami:
«Zəmani xodcoz inkari nadanəd,
Ke ənduhi-dəhəd cani-setanəd. »
Ço kare üftade gərdəd binəvayi,
Dər u dərgirəd əzhər su bəlayi.
Bə hər şaxi-qoli çon dərzənəd cəng,
Be caye qol bebarəd bər sərəş səng.
Genə, Nakam, məqsədi bəyan et,
Təmam et, xətmi–şərhi-dəstan et!
Ki, ruzi-həşrədək etsəm hekayət,
Bu bəhsi–bikəran bulmaz nəhayət.

### ŞİRİNİN BİSÜTUNDA FƏRHADA ƏRZİ-CƏMAL ETDİYİNDƏN XOSROVUN AGAH OLDUĞU VƏ NƏQDİ-ƏHD EDİB ƏSHABİ- DƏSAİSİ DƏRGAR QILDIĞI VƏ AQİBƏT FƏRHADI AMACİ-XƏLƏNGİ-TƏSVİR ETDİYİ VƏ FƏRHAD NAMURADIN BİSÜTUNİ-EŞQDƏ DƏRƏCƏYİ-ŞƏHADƏTƏ YETDİYİ

Olublar vaqif onlar kim, bu halə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu məqtəldə ediblər belə nalə.
Ki, Şirin cilvəsindən şahi-naçar,
Xəbərdar olmağı qılmışdı dərkar.
Neçə bir qasidi-karazmudə.
Təcəssüm eyləyirdi naqunudə.
Əgər xəmyazəkeş olsaydı ol mah,
Edərdi Xosrovu filhal agah.
O gün ki, eyləyib Şirin əzimət,
Qılıb kuhi bəsani–bağİ-cənnət.
Gedib dildadəsi Fərhadı gördü,
O kuhi-səngi, ol bidadı gördü.
Edib şahı bu keyfiyyətindən azad,
Dedilər: «Qafil olma dəxi, ey şah!
Ki, didari–büti–xəndani-Şirin,
Təmaşayi-rüxi-rəxşani-Şirin.
Qılıb Fərhaddə əfzun şükuhi,
Edər hər zəxməsi əfkəndə kuhi.
Görüb cananəsin məsrur olubdur,
Ki, dübala pordilü porzur olubdur.
Bu qüvvət onda gör padar olursa,
Bu qüdrətlə əgər dərkar olursa,
O ahənbirlə kim, ol Kuhkəndir,
O anəg ilə kim, ol tişəzəndir.
Bəsani-mum olub ol kuhi-səngin,
Əlində bulmayıb ol səng təmkin.
İki həftə mürur etməz ziyadə,
Edər ol kuhdən rahi guşadə.
Edib casus bu təqriri-kara,
Bəyan etdi pəyami-nagüvari.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şahi-bədəhd qaldı pay dərgil
Ki, tərki-yardır, əlbəttə, müşkil.
Digərgun hal olub tədbir etdi,
Pozub əhdin, rəhi-təzvirə getdi.
Qılıb aləmdə bir namərd zati,
Əzazil surəti, Xənnas adi.
Fəsadi müstəbai nabud nəfi,
Dəhanində nihani zərhi-əfi.
Rəvanə qıldı kuhi-Bisütunə,
Ki, etsin məkr Fərhadi-zəbunə.
O məkkarü bədəfkarü bədəndiş,
Təriqi-Bisütuni qıldı dərpiş.
İrişdi mənzilə Fərhadı gördü.
Əlində tişeyi-füladı gördü.
Ki, məsti-gərmdir, bixiştəndir,
Bəsani-şiri-vəhşi kühkəndir.
Sərayan qəzəldir aşiqanə,
Edər Şirinin eşqilə təranə.
Qılır hər zəxməsi bir bürcü pərtab,
Edib pərtab, olur ol bürc nayab.
Təqərrüb eyləyib Fərhadə axir,
Dəhanın açdı, şərrin qıldı zahir.
Dedi: «Ey valehü qafil, nədir bu?
Nəçündür bu təəb, bu rənci-bazu?
Dedi Fərhad kim, yadilə yaran,
Müqimi olmuşam bu kuhsarın...
Nigari-məhnəşim kim, dilsitandır,
Büti-canbəxşdir, şirinzəbandır.
Nə Şirin, sərbəsər əndami şirin,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ləbi şirindir, həm nami Şirin.
Əgər bir dəxi görsəm ol nigari,
Yıxıb məhv eylərəm bu kuhsari.
Eşitgəc nami-Şirin o gümrah.
Həzar əfsus qıldı, eylədi ah–
Ki, getmişdir cahandan ol pərizad
Fəğan kim, olmamış agah Fərhad.
Fəğan kim, bədr ikən ol mahi-ənvər,
Xüsusifi-mərgdə oldu mükəddər.
Fəğan canbəxş ikən ol türki-xəndan,
Onu mərg eylədi xak içrə pünhan.
Həman dəmdən ki, Şirin oldu xamuş,
Olub əhli-cahan yeksər siyəhpuş.
Nə pirü nə cavan, nə şahü dərviş,
Nə mərdü zən, cahanda cümlə dilriş.
Edər hər ləhzə bu matəmdə fəryad,
Əcəbdir, bilməyir bu halı Fərhad?!
Edincə nuş bu zəhrabı Fərhad,
Düşüb tişə əlindən etdi fəryad.
Dedi: «Heyfa ki, rəncim oldu nabud,
Bu sevdayi-girandan etmədim sud.
Mənə mehri Süleprin qəhr oldu.
Bəri-nəxmi-ümidim zəhr oldu.
Köçüb rahi-ədəmdən getdi Şirin.
Bəqa gülzarına əzm etdi Şirin.
Edib təqib ol sərvi-rəvani,
Gərək cuyan olum Baği-cinanı.
Deyib Şirin, edib cananını yad,
Axıtdı qanını biçarə Fərhad.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Budur, Nakam, eşqin intihası,
Budur üşşaqi-miskinin cəzası.
Təəşşüq bir bəlayi-nagahandır
Ki, əncamı onun itlafi-candır.

### OLUB SUGUVAR OLDUĞU VƏ BİSÜTUNƏ GƏLİB FƏRHADA-NAMURADI ƏNDƏRMƏZAR QILDIĞI FƏRHADIN GÜŞTEYİ BİDAD OLDUĞUNDAN ŞİRİNİN AGAH

Çü Fərhadın zəmanə tökdü xunun,
Şikəst oldu sütunu Bisütununun.
Fələklərdən mələklər qıldı fəryad
Ki, heyfa küştə, heyfa oldu Fərhad!
Olub Şirin bu keyfiyyətdən agəh,
Siyəhpuş oldu, qıldı nalə ol məh.
Ənisi möhnət oldu, həmdəmi qəm,
Cahanı yeksər etdi dari-matəm.
Edib keysuyi-gülbuyin pərişan,
Pərişan, sinəküban, zarü giryan.
Rəvan oldu matəmgaha getdi,
Fəğani ərşə, ahı Mahə yetdi.
Görüb Fərhadı anda qərqi-xundur,
Əzadarı vühuşi-Bisütundur.
Qərarı qalmayıb avazə qıldı,
Qəmin tazə, fəğanın tazə qıldı.
Yüzinə gözlərinin axdı qanı,
Səmən simasın etdi ərğuvani
İki zülfün qılıb aludeyi-xak,
Gəribani-qəbasın eylədi çak.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Axıb xuni-dəruni tazə-tazə,
Çəkib məh ruyinə xunun ğazə.
Xuruşan nəvanü növhəquyan,
Pərişanü sirişkəfşanü muyan.
Dedi: «Ey aşiqi-nakam Fərhad!
Şəhidi–tici-bihəngam Fərhad!
Qəribü bikəsü biçarə Fərhad,
Bəla pamali, bəxti qarə Fərhad.
Zəbunü bidilü naşad Fərhad,
Qətli-xəncəri-bidad Fərhad!
Nəçün aldın əlimdən ixtiyari.
Məni qıldın bu dərdin sugüvari?
Nə oldu boylə ğərqi-xun oldun?
Boyandın qanına gülgun oldun?
Səni etməm zəbanimdən fəramuş,
Ölüncə can verib dərdində xamuş.
Şəbəngah zarü nalan ağlaram mən,
Səhərgəh ah edib qan ağlaram mən.
Əgər zar olsa da naləmdən aləm,
Qılıb əfğan, edib təcdidi-matəm.
Səni hər an mükərrər ağlaram mən,
Qəmindən ta bə məhşər ağlaram mən.
Cahanda gərdiş etdikcə məhü sal,
Be hər saət, be hər ləhzə, be hər hal,
Səni, yara, edib, yad ağlaram mən,
Deyib Fərhad! Fərhad! Ağlaram mən!»
Edib ol qərqi-xuni dəraquş,
Cəbinin bus qıldı, oldu bihuş...
Qalıb va dambəstə bu matəmdə, Nakam,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nolar rəngi-digərlə versəm əncam.
Bu matəmgahi–Fərhadi-cavandır
Ki, matəmdarı şirinzəbandır.
Zəbanda qalmamış tabü təqrir,
Gedim bu macərayı bir də təfsir.
Bu matəmkədə guya hazır olmuş,
Ətarüdvəş ətarüd nazir olmuş.
Onu purhünər qılmış sərapa
Həmin həngameyi-dilsuzu inşa.
Anı şayan istidrad qıldı,
Bu matəmgahda irad qıldı.
Çü çeşmi-kuhkən dərmərg mixoft,
Bi ahu nale in əbyad miqoft
Ke can şod cane Şirinəm nəyaməd,
Be balin yari-dirinəm və yaməd.
Mənəm dər Aləm-o yek cane Şirin,
Ke kərdəm əz vəfa qarbane Şirin.
Çü şirinəş rəsido dideporxun,
Zəhre çeşmeş rəvan səd rude-Ceyhun.
Müsəlsəl geysuvan bər xak kərde,
Gəriban zin mosibət çak kərde
Be məhe zülfəş siyəhrupuş bəste,
Siyəh puşide dər matəm nişəste.
Ze hənce ərğəvanra niyluqun kərd,
Ze gerye Bisütunra bisükun kərd.
Gereft əz xak dər ağuşəş avərd,
Ze-buye zalfi-meşkin huşəş avərd.
Beləb benehad Şirin şəkkərəşra,
Mofərrəh yaft yaqluttərəşra



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Deləş bequdaxt zin atəş bəraşoft,
Dər an aşoftegi geryan şod qoft–
Ke, ey dər arezu can dade-Fərhad,
Ke, ey dər xako-xun aftade-Fərhad.
Çera gerdiden Qorbane - Şirin,
Be Qorbane-sərəd sədcane-Şirin.
Şəbi-bamən bekame-del nəxofti,
Ğəmi bamən ze dərde-del nə qofti.
Ze böye torreye canbaxşe-Şirin,
Nəzər bequşud Fərhad-bəlabin.
Həmi nalido qoft, ey rahabe-can,
Bər dəra-bəzm vəslət name-hicran.
Be balinəm rəsidi vaxte mürdən,
Çe xoş başed be canan can sopordən.
Əta rud qeyr əz in həsrət nədarəd–
Ke, can dər məğdəme canan sepaəd.
Bu növ ilə olub nalan Şirin,
Qılıb çeşmin sirişkəfşan Şirin.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com